# Böyük Qayıdışın ilk karvanı Ağalıdan başladı



10

SƏS

№ 163 (6604) 9 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

# Brüssel görüşü:

## Azərbaycanın şərtləri yenə keçərli oldu



4

# Sonu görünməyən MÜHARİBƏ



8

## Gənclərin yeni ideyaları hansı səviyyədə inkişaf edib?



7

## Azərbaycanda aqrar sektor prioritet istiqamətlərdəndir



9

## 102-yə ən çox hansı məsələlərlə bağlı zəng edilir?



10



6

## Tələbələrin kirayə ev problemi necə həll olunacaq?





16

## Xavi:

### "Messi tarixin ən yaxşısıdır"



15

## Qlobal mafiyanın ölüm biznesi: Orqan ticarətinin dəhşətləri

# Azərbaycan vərəmlə mübarizəni ən yaxşı təşkil edən ölkələrdən biridir

## Prezident İlham Əliyev Bakıda Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib. Sanatoriyanın yeni binası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən inşa olunub.**

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirildi ki, 1914-cü ildən fəaliyyət göstərən professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyası sağlamlığına qovuşmaq istəyən şəxslərin istifadəsi üçün tam hazır vəziyyətə gətirilib. Sanatoriya üçün 300 çarpayılıq beşmərtəbəli yeni bina inşa edilib. Sağlamlıq müəssisəsində müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüadiaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərəcək. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir.

Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq.

Prezident İlham Əliyev daha sonra sanatoriyanın fizioterapiya, rentgen otaqlarında, kliniki laboratoriyada, yeməkxanada, akt zalında, kitabxanada, palatalarda, sinif otaqlarında yaradılan şəraitlə də tanış olub.





Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, vərəm ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Buna baxmayaraq, vərəm sağalan xəstəlikdir. ÜST-nin ekspertlərinin fikrincə, onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edilən ölkələrdən biridir. Ölkəmizdə də ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizədə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.







## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.






# Məktəblərin infrastrukturunun tamamilə yenilənməsi təhsilin inkişafına böyük təkan verir

**Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi.**

Bildirildi ki, 1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik yeni binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 5454 kvadratmetrdir.

Prezident İlham Əliyev məktəbin yeni binasının çağırışa qədər hərbi hazırlıq otağında, ekosinifdə, biologiya kabinetində, informatika və rəsm otaqlarında, yeməkxanada, əmək otağında və fizika kabinetində yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, təhsil müəssisələrinin işinin, tədris proqramlarının müasir çağırışlara uyğunlaşdırılması, müasir əmək bazarına uyğun kadr potensialının formalaşdırılması dövlətimizin prioritetləri sırasındadır. Müasir məktəblərin tikilərək istifadəyə verilməsi, təhsil müəssisələrində bərpa və yenidənqurma işlərinin ardıcıl xarakter alması da bu prosesin tərkib hissəsidir. Bu strategiyaya Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramı ilə davamlı şəkildə dəstək verir.



Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə və Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub

Prezident İlham Əliyev dünən həmçinin Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə də tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə məktəbdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı var idi. Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib. Eyni vaxtda 2304 şagirdin təhsil ala biləcəyi məktəb bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir.



Qeyd olundu ki, dördmərtəbəli korpusda sinif, əmək, hərbi, rəsm, həkim, musiqi və müəllimlər otaqları, laboratoriyalar, kitabxana, yeməkxana, idman, aerobika və akt zalları var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

Beləliklə, məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.






# Brüssel görüşü:
# Azərbaycanın şərtləri yenə keçərli oldu

## İLHAM ƏLİYEV: "Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm"



Prezident İlham Əliyevin İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə verdiyi müsahibəsində bəyan etdiyi kimi, Azərbaycan 44 günlük müharibədə düşmən üzərində hərbi qələbə çaldıqdan dərhal sonra bölgədə sülhün bərqərar olması üçün diplomatik müstəvidə də ardıcıl və uğurlu addımlar atmağa başlayıb: ”Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm. Mən İtaliyaya Brüsseldən gəldim. Orada mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüşümüz oldu. Biz razılığa gəldik ki, bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər. Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu. Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi. Əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq. Zaman çərçivəsi və məzmun nədən ibarət olacaq. Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu, realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib”.

Bəli, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazandığımız diplomatik qələbələr ötən ilin 26 noyabrında Soçi bəyanatı ilə daha da möhkəmlənib. Belə ki, Avropa İttifaqının vasitəçiliyi ilə ötən ilin dekabrından başlayan ”Brüssel prosesi” sayəsində isə üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Xüsusilə, bu ilin 6 aprelində keçirilən üçüncü Brüssel görüşündə isə Azərbaycanın irəli sürdüyü 5 prinsip Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən qəbul edildi. Yəni bu, o deməkdir ki, iki ölkə arasında imzalanacaq sülh müqaviləsi rəsmi Bakının irəli sürdüyü məlum baza prinsipi əsasında qurulacaq. Lakin hələ də bundan yayınsa da, avqustun 31-də Brüsseldə keçirilən dördüncü üçtərəfli görüşdə də yenə də Azərbaycanın şərtləri keçərli oldu və sülh prosesi ilə bağlı real addımlar atmağın mütləqliyini ortaya qoydu. Artıq iki ilə yaxın müddətdə hər cür hiylə, təxribatçı əməllərlə sülhə nail olmağı yubadan Ermənistanın bundan yayınmaq yolları bağlandı və o, sülh razılaşmasına məcbur edildi.Bəli, növbəti dördüncü Brüssel görüşü bir daha sübut etdi ki, şərtləri qalib lider diktə edir və məclub olan ölkənin rəhbəri də bu şərtlərə əməl etməlidir. Çünki 2020-ci il sentyabrın 27-də başlayan İkinci Vətən müharibəsi, məhz Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev 30 ildə həll olunmayan qondarma ”DQ”nin həllinə ”Dəmir yumruq” əməliyyatı ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərin qəhrəmanlığı ilə 44 gün ərzində haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpasına və Qarabağımıza qovuşdurdu.İstər Soçi, istərsə də Brüssel görüşlərində bir daha sübut olundu ki, Azərbacan Prezidenti qalib lider olaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə də həqiqətləri açıqlayacaq və açıqladı da! Prezident müharibədən ötən bir il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda gördüyü böyük işləri göstərərək dünyaya bəyan etdi ki, Azərbaycan, hər zaman olduğu kimi, sülh tərəfdarıdır. Öhdəliklərin yerinə yetirilməsi də bölgədə təhlükəsizliyin təminatına xidmət edəcək. Ancaq görünən odur ki, Ermənistan yenə də hansısa bəhanələr uydurmaqla vaxt uzadır. Yəni, Azərbaycan bu istiqamətdə nəticəyönümlü addımlar atır. Amma Ermənistan da xoş məram sərgiləməlidir və Zəngəzur dəhlizi ətrafında manipulyasiyadan əl çəkməlidir. Çünki 10 noyabr 2020-ci il imzalanan üçtərəfli bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi, maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.

### Qarabağın ”statusu” barədə hər hansı müzakirəyə dönüş yoxdur, münaqişə bitib

Azərbaycan Prezidenti İlham Əliyev bütü çıxışlarında, müsahibələrində deyib ki, ”Qarabağın statusu barədə hər hansı müzakirəyə dönüş yoxdur, Dağlıq Qarabağ münaqişəsi bitib. Bəli, Ermənistan bunu istəsə də, istəməsə də Dağlıq Qarabağ münaqişəsi bitib. Azərbaycanın mövqeyi açıq-aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibədə zəfər çaldıq, biz qalibik. Bu reallığı nəzərə almaq lazımdır”. Bölgədəki vəziyyətə toxunan Prezident İlham Əliyev bunun nisbətən sabit olduğunu vurğulayıb: ”Təəssüf ki, Ermənistan revanş cəhdlərinin qarşısını almayıb. Onlar üçün İkinci Qarabağ müharibəsində məğlubiyyət çox ağrılı, demək olar, 30 ildir ordunun məğlubedilməzliyi, onun əsgər və komandirlərinin gücünü, cəsarətini təbliğ edən ideoloji əsas və təbliğatı üçün sarsıdıcı olub. 44 günlük müharibə zamanı onların ordusu tamamilə məhv edilib”.

### Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən əsası qoyulan Brüssel sülh gündəliyi

Yeri gəlmişkən, xatırladaq ki, Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülh və sabitliyə sadiqliyi xüsusilə dünyada ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri olan Avropa İttifaqı (Aİ) tərəfindən yüksək səviyyədə dəstəkləndi. Aİ Şurasının Prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev arasında intensiv dialoq və təmaslarla Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanmasında, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılmasında özünü qabarıq büruzə verdi. Nəticədə postmüharibə dövründə yeni format - Brüssel sülh gündəliyi yarandı. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirildi, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyuldu və tərəflər arasında intensiv təmaslar aparıldı, telefon danışıqları gerçəkləşdirildi. Xatırladaq ki, Brüssel sülh gündəliyində prioritet istiqamət olan sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.Və avqustun 31-də Brüsseldə keçirilən dördüncü üçtərəfli görüş dövlətimizin başçısı Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə edə bildi. Beləliklə, bir ay müddətində Xarici İşlər Nazirliyi xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə razılıq əldə olundu.Qeyd edək ki, yeni sənəddə Qarabağ mövzusu, həmçinin ATƏT-in Minsk Qrupu yer almayıb, MQ formatının artıq tarixdə fəaliyyətsiz bir qurum kimi qalması, əvəzində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində Aİnın vasitəçilik formatının mövcudluğu öz ifadəsini tapıb. Bir sözlə, Azərbaycanın daxili işi olan Qarabağ mövzusunun müzakirə edilmədiyi qənaəti təsdiqlənib. Bununla belə sülh müqaviləsinin Bakının irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında qurulacağı nəzərdə tutulub. Bütün bunlar isə Ermənistanı sülhə məcbur edən ”Dəmir yumruğ”un gücüdür.

### Ermənistanın başqa yolu də yoxdur

Sülh prosesinin gedişatı ilə bağlı Prezident İlham Əliyev İtaliya qəzetinə müsahibəsində bildirib ki, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüş zamanı bununla bağlı razılığa gəlinib. Dövlət başçısı onu da xüsusi vurğulayıb ki, bu razılaşmaya gəlmək üçün Ermənistana vaxt lazım oldu: ”...Bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər. Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu”. ”Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi”, - deyə söyləyən İlham Əliyev qeyd edib ki, əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq: ”Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib”.

Bir sözlə, həm Soçi, həm də Brüssel görüşləri bir daha təsdiq etdi ki, qalib ölkənin qalib lideri Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: ”Ermənistan istəsə də, istəməsə də...”.

***RƏFİQƏ KAMALQIZI***





# Ədalət, bərabərlik təmin olunmalıdır

**Qərb sanki bütün dünyaya qarşı döyüşür. Bəzən hətta elə təəssürat yaranır ki, Qərb elə bil Rusiyanı coğrafi xəritədən silməyə çalışır. Digər ölkələrlə də Qərbin münasibətləri heç də əvvəlki kimi deyil. Avropanın özünün belə heç bir təhlükəsizlik sistemi yoxdur və olacağı da gözlənilmir. Əvvəllər müşahidə etdiyimiz tendensiyalar müəyyən dərəcədə dərinləşib, hətta pisləşib və demək olar ki, müəyyən dönməz beynəlxalq proseslər belə artıq çoxdan formalaşıb.**

Dünyanın iki, ən böyük ölkəsi olan Rusiya ilə ABŞ arasında münasibətlərin tamamilə dağılacağı qənətində olanlar az deyil. Bir çoxlarının fikrincə, əvvəllər bu münsibətlər yaxşı olmasa belə, ən azından normal idi. Lakin Ukrayna ilə müharibəyə Amerika və Avropanın reaksiyası, Rusiyaya qarşı sərt sanksiyalar sanki az da olsa mövcud olan münasibətlərə, diplomatiyaya son qoydu. Sanksiyalar da sözsüz ki, çox qəribə görünür, çünki bir növ Rusiyanı coğrafi xəritədən silmək məqsədi güddüyü təsiri bağışlayır. Əlbəttə ki, buna nail olunacağı inandırıcı görünmür, çünki Rusiya böyük ölkədir və buna qarşı mübarizə aparmaq qabiliyyətinə, gücünə sahibdir. Dünyada sülh şəraitində yaşamaq aşılandığı halda, Rusiyanın təcrid olunması mümkün deyil. Belə bir siyasətin yürüdülməsi də yanlışlıqdır. Təbii ki, hansısa ölkənin, onun marqlarının müdafiəsi kimi bir niyyətimiz yoxdur, sadəcə, Rusiyanın timsalında bir nümunə gətirmək istədik və heç şübhəsiz ki, dünya düzənində baş verən hadisələrdə müşahidə edilən yanlışlıqlara reaksiya verilməlidir, hətta yeri gələndə buna qarşı çıxılmalıdır ki, ədalət, bərabərlik təmin olunsun.

Artıq Qərbin apardığı siyasətdən sığortalanmaq üçün dünya ölkələrinin müvafiq addımlar atdığı da müşahidə olunur. Sözsüz ki, belə addımlar nəinki gözlənilən, hətta labüd hesab olunur. Ümumiyyətlə, Qərb ölkələri istisna olmaqla, bütün dünya imkan daxilində dollardan asılılığı azaltmaq niyyətindədir. Bunun üçün göstərilən səylər də göz önündədir. Artıq milli valyutalarla ticarət başlayır. Bu proses isə, nəinki dolların hökmranlığını sarsıdacaq, hətta maliyyə sferasında bütün Amerika hegemonluğuna mütləq təsir edəcək. Təbii ki, həmin prosesin mənfi təzahürləri də ola bilər. Məsələn, beynəlxalq sistemin və qlobal iqtisadiyyatın parçalanmasına gətirib çıxaracağı da gözləniləndir.

Qərb bəzən bəyan edir ki, demokratiya ilə avtokratiya arasında savaş, yaxud heç bir mübarizə yoxdur. Məsələ burasındadır ki, Qərbin avtokratiya kimi qiymətləndirdiyi, yaxud qələmə verdiyi bəzi ölkələrin əksəriyyətində avtokratiya yoxdur, həmin ölkələr sadəcə öz prinsipləri ilə yaşayırlar. Beləliklə, bəlli olur ki, baş verənlərin qeyri-düzgün təsviri avtokratiyaya qarşı, bəyan edilən demokratiya deyil, əksinə, Qərbin dünyanın qalan hissəsinə qarşı olmasıdır. Dəyərlər və qaydalara əsaslanan nizam-intizam haqqında Qərbin diskursu da göründüyü kimi, getdikcə daha boş səslənməyə başlayır. Hətta, dünya düzəninin necə qurulacağına dair fikirlər baxımından belə dünyanın qalan hissəsi üçün getdikcə daha az məqbul sayılır. Bu isə o deməkdir ki, çoxqütblülük getdikcə daha da güclənir, əvvəllər hücuma məruz qalan qloballaşma belə indi öz mənasını, belə çıxır ki, itirməyə başlayır.

Birləşmiş Millətlər Təşkilatının Əhali Proqramına görə, oktyabr ayında dünya əhalisinin sayı 8 milyarda çatacaq. Son illərin hadisələri isə təsdiq edir ki, bütün bu insanların səhhəti təhlükə altındadır. Qərb hegemonluq arzusuna düşməkdənsə, bunu düşünmək və bu haqda tədbirlər görmək niyyətində olsa, daha yaxşı olar. Hindistan və Cənubi Afrikanın COVID-19-un müalicəsi və qarşısının alınması üçün vacib olan tibbi məhsulların buraxılmasını təklif etməsindən təxminən iki il sonra, Ümumdünya Ticarət Təşkilatı fərqli davranmağa qərar verib. Görünən isə odur ki, məsələ hələ də uzanır və bu gedişlə uzanmaqda davam edəcəyi də istisna edilmir. Dünyada milyonlarla insan xəstəlik səbəbindən həyatını itirib və hələ də proqnozlar ürəkaçan deyil.





Proseslər geosiyasi nizamın necə işlədiyinin, onun təməlinin və alətlərinin nədən ibarət olduğunun sübutudur. Maraqlar tamamilə fərqlidir. Bunun kimin maraqlarına xidmət etdiyi və arxasında nələrin dayandığı da bütün dünyanı düşündürməlidir. Həm də təkcə düşündürməli deyil, qarşısı alınmalıdır ki, ədalət, bərabərlik təmin olunsun. Hazırda isə bunun əksini müşahidə edirik və kimlərinsə, hansısa konkret qrupların maraqlarını təmsil etməyə başladığının tarixi trayektoriyası görünür. Lakin belə olmalı deyil, kimlərinsə maraqlarının təminatı dayandırılmalı və bütün dünya insanlarının maraqlarının təminatı ön planda olmalıdır.

Dünyanın bütün insanları üçün təhlükə olan xəstəliklərlə yanaşı, qlobal böhran, qida təhlükəsizliyi, hətta bütün dünyada taxıl tədarükü belə problemli məsələlərdəndir, hansıki bütün dünyanı məhz bu məsələlər daha çox düşündürməli, həllinin tapılması üçün birləşdirməlidir, parçalamamlıdır. Rusiya ilə Ukryna arasında davam edən müharibə, dünyanın hər iki taxıl ixracatçısı olan ölkələrin taxılı ixrac edə bilməməsi qeyd olunan problemi daha da dərinləşdirir. Amma problemi dərinləşdirmək yox, həllini tapmaq gərəkir, çünki yaxın zamanda hansı çətinliklərin ortaya çıxacağı nəzərə alınmalıdır. Sözsüz ki, taxılın qıtlığı, qida təhlükəsizliyi ilə əlaqədar problemlər, ən azından qiymətlərin bahalaşması deməkdir və bu həm də inflyasiyanın sürətlə böyüməsinə, böhranın daha da dərinləşməsinə yol açır.

Dünyada müşahidə olunan iqim dəyişikiyi, qlobal istiləşmə, quraqlıq, su ehtiyatlarının, eləcə də bir sıra təbii resursların azalması artıq həyəcan təbili çalmaq zamanının çoxdan gəldiyini xəbər verir. Qlobal istiləşmə planetin biomüxtəlifliyi üçün ciddi təhlükə hesab edilir. Təbii resursların tükənməsi də kiçik problem deyil. İqlim dəyişməsi planetin bütün bölgələrində müşahidə olunur, təəssüf ki, bu proses getdikcə daha da intensivləşir. Bu barədə Cenevrədə İqlim üzrə Hökumətlərarası ekspertlər qrupunun məruzəsində də qeyd olunur. Məruzənin müəllifləri, daha dəqiq desək, dünyanın 66 ölkəsindən olan 234 ekspert hesab edir ki, bəşəriyyət iqlim dəyişməsinin miqyasını məhdudlaşdırmaq gücünə malikdir və onların fikrincə, atmosferə atılan zərərli tullantılar, o cümlədən istixana qazları əhəmiyyətli dərəcədə azaldılsa, qısa müddətdə havanın keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq və qlobal temperaturu sabitləşdirmək olar. "Bu haray qulaqbatırıcı, təqdim edilən sübutlar isə danılmazdır", deyən BMT-nin Baş katibi Antonio Quterreş, İşçi Qrupunun məruzəsini bütün bəşəriyyət üçün həyəcan siqnalı adlandırıb. Deməli, bütün dünya həyəcan təbili çalınan vəziyyətdən xəbərdardır. Elə isə, niyə qlobal problemlərə fokuslanma müşahidə edilmir? İndi dünyada hansısa ölkələri hədəfə alan, ən azından irad bildirən Qərb bu problemlərdən sığortalanıbmı? Qlobal problemlər Qərbə aid deyilmi? Bütün qalan iddiaları bir kənara qoyub dünyanı düşündürən, narahat edən məsələlərin həlli ilə məşğul olunsa, daha doğru olmazmı? İndi bütün dünyada, insan azadlığı, demokratiya və sair dəyərlərdən dəm vuran Qərb həqiqətən də dünya insanı haqqında düşünürsə, ilk növbədə bütün bunları nəzərə almalıdır.

Dünya birdir, eləcə də bölünməzdir. Yaşadığımız planet hamı üçündür. Yaranan problemlər heç kimə təsirsiz ötüşə bilməz. İstər fövqəl dövlət olsun, istərsə də çırtdan dövlət, heç bir ölkə sığortalanmayıb. Problemlər hamı üçün təhlükə deməkdir. Üstəlik, ən yüksək bərabərsizlik dərəcəsi hər kəs üçün təhlükə yaradır. ÜTT-nin hamı üçün vacib olan qərar qəbul etməməsi sübutdur ki, biz çoxtərəfli institutları həqiqətən ümumbəşəri maraqları əks etdirmək üçün transformasiya etməliyik, əks halda qarşıdan gəldiyini bildiyimiz təbii fəlakətlə, eləcə də ağlasığmaz bəlalarla üzləşəcəyik. Elə etmək lazımdır ki, həmin 8 milyardın maraqlarına xidmət edilmiş olsun və bütün nə varsa onlar arasında bərabər bölünsün. Bir sözlə, bəşəriyyətin xilası üçün dünyanı bölmək yox, hər şeyi insanlar arasında bərabər bölmək gərəkir. Hər bir halda, ədalət, bərabərlik təmin olunmalıdır.

***İnam Hacıyev***

# Tələbələrin kirayə ev problemi necə həll olunacaq?

**Bütün dünyada olduğu kimi Azərbaycanda da kiray ev bazarında qiymətlər günbəgün dəyişir. İstər Bakının mərkəzində, istərsə də mərkəzdən kənarda müxtəlif qiymətlərdə kirayə evlər tapmaq olar. Bəs bu qiymətlər nəyə əsasən tez-tez dəyişir?**

Daşınmaz əmlak bazarından əldə etdiyimiz məlumata görə, yerindən asılı olaraq, evlərin qiymətində təxminən 50-100 manat bahalaşma müşahidə olunur.

1000 manata və daha baha kirayə verilən mənzillərin qiymətləri isə əksinə ucuzlaşıb. Çünki bu sahədə icarəçi qıtlığı var.

1,2 və 3 otaqlı mənzillərin bahalaşması əsasən tədrisin başlanması ilə əlaqədardır. Rayonlardan şəhərə axın edən minlərlə tələbə vardır ki, onlar da qalmaq üçün məhs kirayə ev axtarmalı olurlar.

1990-cı ilin əvvəllərindən, ermənilərin torpaqlarımızı işğal etməsindən sonra keçmiş məcburi köçkünlərin yurd-yuvalarından Bakı və digər ərazilərə gəlməsi ilə başladı. Keçmiş məcburi köçkünlərin bir hissəsi tələbə yataqxanalarına sığındılar. O vaxtdan bu günə kimi tələbələr üçün yataqxana və yaxud normal şəraitdə ucuz ev tapmaq çətin məsələ olub.

Nəzərə alsaq ki, bölgələrdən gəlib paytaxtda kirayə qalan tələbələrin sayı minlərlədir. Tələbələrin ev problemi aradan qalxsa, kirayə mənzilində stabillik yaranar, qiymətlərdə yumşalmalar, hətta enmələr belə müşahidə olunar. Zaman keçdikcə paytaxt ərazisindən köhnə, ucuz mənzillər sökülüb yeniləri ilə əvəzlənəcək və qiymətlərin iki dəfə baha olacağı gözlənilir.

**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, Vecon Consultinq şirkətinin direktoru, iqtisadçı-ekspert Vüqar Oruc**



SİA-ya açıqlamasında qeyd edir.

Adətən tədris ilinin başlanması ilə start götürən dəyişikliklərdən biri kirayə bazarında qiymətlərin dəyişməsidir. Bütün bazarlarda əsas artım və azalma tələb və təklif üzərində qurulur. Əgər tələb artırsa təklif qiymətlərin yüksəlməsini gözləmək lazımdır. Bu dövrdə də tədris ilinin başlanması ilə əlaqədar tələb artıb və ali təhsil müəssələrinə daxil olanlar Bakı şəhərində yerləşib təhsillərini davam etdirmək üçün kirayə mənzil bazarında axtarışa başlayırlar. Bu axtarışların sayı artdıqca, mənzilin kirayə qiymətləri də artmağa başlayır. Son bir neçə ildə pandemiya dövründə tədris onlayn sistem üzrə oldu və 2020-ci ildə mənzil, kirayə evlərin qiymətlərinin aşağı düşdüyünün şahidi olduq. Hələ də tərəddüd vardır ki, ola bilsin tədris onlayn sistemə keçsin və ya qapanmalar baş versin. Ona görə də 2020-2021-ci illərdə artımı o qədər müşahidə etmədik. Bu proses ilk bir ay, bir ay yarım davam edəcək və bütün tələbat ödənildikdən sonra artımın dinamikliyi aşağı düşüb sabitlik yaranacaq. Bəzi hallarda isə ümumiyyətlə geri sayım başlayır və qiymətlərdə enmələr də müşahidə edirik. Artım bütünlükdə daşınmaz əmlakın qiymətində, istər alqı-satqı, kirayə, ümumi tendensiyaya uyğun şəkildə davam edir. İqtisadiyyatı inkişaf edən investisiya cazibədarlığı artan ölkələrdə daşınmaz əmlakın qiyməti daha yüksək olur. 30 ildir işğal altında olan ərazilərimizi azad etdik və bütün dünyanın diqqəti Azərbaycana yönəlib. Azərbaycanda investisiya qoymaq, biznes proyektlərində iştirak etmək istəyən xarici investorların sayı artıb, təbii ki bu da öz növbəsində daşınmaz əmlak bazarına öz təsirini göstərir.



Təsadüfü deyil ki, 2020-ci ilin əvvələrində daşınmaz əmlakın təklif qiymətləri təqribən 15 faiz civarında, bəzi yerlərdə 20 faiz civarında artıma uğradı və bahalaşmasının şahidi olduq. Son illərdə belə bir hala təsadüf etmədiyimiz halda birdən-birə baş vermə səbəbi ölkəmizin dünya sistemində statusun dəyişməsi, qalib ölkə statusunun əldə etməsi və eyni zamanda turistlərin, investorların Azərbaycana diqqətin artması nəticəsində baş verən bir dəyişiklik idi. Hazırki qiymət dəyişimi 10/15 faiz civarındadır. Öncələr evlərin kirayə qiyməti 400/450 manat idisə, hazırda 500/550 manat təşkil edir. Övladlarının təhsil almasını təmin edən ailələr sıxıntı, büdcə qıtlığı yaranmasın deyə mənzilləri daha çox ucuz qiymətə tapmağa çalışırlar. Hazırda həmin mənzillərin tapılması çətindir. Bunun təbii ki yolları var, bəzi hallarda eyni kənddən olan tələbələrin birləşib bir mənzildə qalması planları reallaşdırılır, belə olan halda kirayənin dəyəri bir neçə nəfər arasında bölünür, bu da ailələrin büdcəsinə o qədər də ciddi təsir göstərmir. Qiymət aralığı olaraq təbii ki yüksək qiymətlərə tələbələrin yönəlməsi mümkün deyil. Adətən bazar qiymətində aşağı olan və komfortu az olan evlərə daha çox üstünlük verilir. Amma bunu investorlar, xaricdən gələn qonaqlara aid etmək olmaz, onlar əksinə, daha çox komfortu olan və şəraiti yaxşı olan evlərə üstünlük verirlər.

"Kirayə bazarında qiymət artımı son iki ildir daha çox müşahidə olunur. Bunun yaranma səbəbi pandemiya ilə bağlıdır, iki il öncə qapanmalar olmuşdur ki, həmin qapanmalardan sonra dərs ili dayandığı üçün tələbələr rayonlara-öz evlərinə qayıtmalı oldu və qaldığı evlər başqa ailələrə təhvil verildi". Bu sözləri **əmlakçı Mülkədar Rüstəmov** deyib. Öncələr qaldıqları mənzilləri başqa vətəndaşlara təhvil verdiyindən tələbələr ev tapmaqda çətinliklə üzləşirlər. Onlardan bir qismi hostellərdə, bəziləri qohumların evlərində qalır, bəziləri də çox baha qiymətə kirayə ev tutmalı olurlar. Keçən ildən mövcud olan problemlər bu il yenidən qabarmağa başlamışdır. Bizə müraciət edənlərin 80 faizi məhs tələblərdir. Öncələr



iki otaqlı mənzili 350 manata təklif edirdiksə, indi qiymət artımı ilə əlaqədar olaraq 400/450 manata müştərilərə təklif olunur. 3 otaqlı mənzillərin qiyməti isə 500/550 manatdan başlayır. Əvvəl bu rəqəmlər 450 civarında göstərirdi. Tələbələrin ən çox üstünlük verdiyi mənzillər 1 otaqlılardır ki onlar da çox az vaxtlarda tapılır. Əvvələr qiyməti 200/250 azn idisə indi rəqəmlər 300/350-ni göstərir. Təssüflər olsun ki, bir otaqlı mənzillər demək olar ki tapılmır. Şəhərin 9 istiqamətində - Xırdalan , Abşeron, Səbail və s hər bir bölgəsində kirayə qiymətlərin artımı müşahidə olunur. Həmçinin də bu ildən satış qiymətləri artmışdır. Gördüyümüz mənzərə budur ki, tələbələr üçün bu il kirayə tapmaq çox çətin olacaqdır. Çünki bizim ofisdə təkcə 50-yə yaxın qeydiyyatdan keçən tələbə var. Qiymət artımı get-gedə yüksələn proses üzrə davam edir.

Gələn tələbələr əsasən 300/350 civarında maksimum 500-ə qədər qiymətdə olan mənzillər axtarırlar. Onlarda da əksər hallarda 5 nəfər qalır. Müraciət edənlərin çoxusu da xanım tələbələrdir.

Ümid edirik ki, yaxın gələcəkdə tələbələrlə bağlı bu kim problemlər öz həllini tapacaq. Bir çox yataqxanada məcburi köçkünlər məskunlaşıb, şəhərin bir çox yerlərində 11 təhsil müəssisəsinin yataqxanası var və əksəriyyətində məcburi köçkünlər qalır. Dövlət öz proqramını həyata keçirəcək ki, yaxın 3 il ərzində bu proses başa çatacaq və məcburi köçkünləri çıxarıb öz doğma el-obasına yerləşdirəcəklər. Həmin yataqxanalar təzədən təmir olunub tələbələrin ixtiyarına veriləcəkdir.

## Bəs yataqxanalarda vəziyyət necədir?

**Azərbaycan Tibb Universitetinin mətbuat xidmətinin rəhbəri Günel Aslanova** SİA-ya açıqlamasında bildirir. Azərbaycan Tibb Universitetinin yataqxanası haqqında demək istəyərdim ki, hal-hazırda 4 yataqxana fəaliyyət göstərir. Həmin yataqxanalarda Tibb Universitetində təhsil almış tələbələrimiz yaşayırlar. 1 və 2 saylı yataqxanasında qızlar yaşayırlar, 6 saylı yataqxanada oğlanlar, 5 saylı yataqxana isə əcnəbi tələbələr üçün ayrılmışdır. Yataqxanaların ümumi tutumu 968 nəfərdir. Hər il olduğu kimi bu il də çalışacayıq ki tələbələrimizi yataqxana ilə təmin edək. İlk olaraq şəhid və qazi ailələrinə, ondan sonra digər



tələbələri yerləşdirəcəyik. Hal-hazırda tələbələrin yerləşdirmə prosesi başlanmayıb. Bu il yerlər kifayət qədər boş olmasa da çalışacayıq ki imkanı zəif olan tələbələr üçün yer ayıraq. Tələbələrin yataqxana haqqına gəldikdə ümumiyyətlə ölkəmizdə kommunal xərclər kifayət qədər qalxıb, amma buna baxmayaraq öz vətəndaşlarımız olan tələblərin yataqxana haqqı məsələsinə baxılmayıb. Qiymətlər əvvələr olduğu kimi bir aya 50/80 manat civarında dəyişir. Bu rəqəmlər də yataqxanadakı otaq tutumuna görə dəyişir.

***Havar Şəfiyeva***

# Gənclərin yeni ideyaları hansı səviyyədə inkişaf edib?



**İdeya yaratmaq, yeni fikir irəli sürmək bəziləri üçün vərdişdir. Çeviklikə birdən çox insanın bir araya gəlib kollektiv beyinlə fikirlər çıxarmasına zəmin hazırlamaq və vəziyyəti asanlaşdırmaq üçün bir çox texnika var. Yaradıcılıq insanların müəyyən mənada yeni və dəyərli ideyalar irəli sürmək bacarığıdır. Yaradıcılıq insan beyninin sağ lobu tərəfindən əlaqələndirilən bir xüsusiyyətdir və şəxslərə irsi yolla ötürülə bilər.**

Gənclərin yeni ideyaları hansı səviyyədə inkişaf edib? İdeyalar və layihələrlə bağlı hansı problemlər var? İdeyalar özlərini doğruldurmu? SİA mövzu ilə bağlı təşkilat sədrlərinin fikirlərini öyrənib.



**NAYORA-nın sədri Azər Əliyev:** "Gənclər dedikdə ilk ağlımıza gələn enerji, təşəbbüskarlıq, yaradıcılıq və yenilikçilikdir. Yaxın keçmişə nəzər salsaq, həmçinin gənclər sahəsində fəaliyyət göstərdiyim illər ərzində qarşılaşdığım təcrübələr mənə onu göstərir ki, milli dəyərlərini mənimsəmiş, vətənpərvərlik ideyası əsasında tərbiyə olunmuş - yetişmiş gənclik inkişaf mənbəyidir. Əminliklə vurğulaya bilərəm ki, bu gün gənclərimiz dəyişən dünyanın tələblərinə uyğun layihə ideyaları formalaşdırır və icra edirlər. Danılmaz faktdır ki, gənclərin hər tərəfli inkişafı baxımından gənclər təşkilatlarının rolu əhəmiyyətlidir. Artıq elə bir dövrdür ki, gənclər istədikləri informasiyanı və resurs dəstəyini bir addımda əldə edə bilirlər və informasiya bu dövr üçün bir gəncin sahib ola biləcəyi ən güclü kapital, xəzinədir. Gənclərin qəbul etdiyi informasiyanı, beyinlərində formalaşdırdıqları ideyanı layihə formasına transformasiya edilməsində və reallaşdırılmasında gənclər təşkilatlarının üzərinə müəyyən öhdəliklər düşür.

Gəncliyin özünün hər zaman diqqətə və qayğıya, onların inkişafına göstərilən dəstəyə ehtiyacı var. Və bu baxımdan düşünürəm ki, dövlətimiz daima bunun fərqindədir, gənclərə qayğı və diqqət göstəririlir, onların ideya və layihələri dəstəklənir. Müasir dövrdə isə cəmiyyətin gələcək inkişafı baxımından gəncliyin rolu daha aktuallaşıb. Çünki biz indi biliklərin, innovasiyaların, yeni texnologiyaların getdikcə daha çox hakim olduğu dünyada yaşayırıq. Bu yenilikləri asanlıqla mənimsəyib cəmiyyət həyatına gətirənlər isə, texnologiyalar dövründə doğulub böyüyən, bu mühitə aid olan gənclərdir. Hal-hazırda gənclərin inkişafı, ideyalarını reallaşdırmaları üçün bir çox dövlət qurumları, gənclərlə işləyən müəssisələr və gənclər təşkilatları tərəfindən müxtəlif imkanlar yaradılır. Bunun nəticəsi olaraq minlərlə gənc öz ideyasını reallaşdırmaq şansı əldə edir.

Gənclərlə keçirdiyimiz görüşlərə əsasən qeyd edə bilərəm ki, layihələrlə bağlı gəncləri narahat edən əsas məsələlərdən biri ilk növbədə ideyalarını layihəyə çevirməkdə çətinlik çəkmələri və gələcəkdə layihəni arzu etdikləri qədər uğurlu icra edə bilməyəcəklərindən ehtiyyat etmələridir. Biz də NAYORA olaraq üzv və tərəfdaş gənclər təşkilatları ilə birlikdə bu istiqamətdə müxtəlif fəaliyyətlər, proqramlar və layihələr həyata keçiririk. Bunlara nümunə olaraq "Gənclər Təşkilatlarının Fəaliyyətlərinin Dəstəklənməsi" və "Gənclərlə iş Üzrə Menecerlərin İnkişaf Proqramı" kimi layihələri göstərə bilərəm. Bu layihələrin icrasında əsas məqsədimiz gənclər təşkilatlarının potensiallarının inkişaf etdirilməsi ilə onların çətiri ətrafında topalaşan gənclərin müvafiq sahədə bilik və bacarıqlarının artırılmasına dəstək olmaqdır.

Qeyd etdiyim kimi ideyaların özlərini doğrultmaması üçün hər hansı ciddi səbəb olduğunu düşünmürəm. Düzdür, çətinliklər hər zaman olur, amma çətinliyi uğura çevirmək bir çox hallarda bizim öz əlimizdə olur. Qısa nümunə olaraq NAYORA-nın Odlar Yurdu Gənclər İctimai Birliyi ilə 8 günlük layihələrin yazılması və idarə olunması təlimlərini nümunə göstərə bilərəm ki, həmin təlimlərdən sonra biz bir neçə gəncimizin fərqdi qrantlara müraciət etdiklərinin şahidi olduq və müxtəlif layihələri icra etdiklərini öyrəndik. Bu ancaq fərdi gənclər üçün deyil üzv gənclər təşkilatlarımız üçün də keçərlidir. Bildiyimiz kimi mütəmadi olaraq istər yerli, istərsə də beynəlxalq donorlar tərəfindən qrantlar elan olunur. Biz mütəmadi olaraq təşkilatların bununla bağlı məlumatlandırılması üçün infossesiyalar və konsultativ görüşlər edirik, sevindirici haldır ki, bunun sayəsində qrant müsabiqələrinə uğurlu nəticəsi olan təşkilatların sayı kifayət qədərdir. Hətta vurğulamaq istərdim ki, NAYORA tərkibində xüsusi könüllülük proqramı fəaliyyət göstərir və könüllülərimiz öz təşəbbüsləri ilə müxtəlif təlimçilər, ekspertlər dəvət edərək gənclər üçün öyrədeci və faydalı mühit yaradaraq layihələrin yazılması, idarə edilməsi və digər istiqamətlərdə praktiki təlimlərdə iştirak edirlər. Hal-hazırda bir qrup könüllümüzün beynəlxalq donora müraciət etdiyi layihə uğurlu hesab edilib və layihə Bakıda, eyni zamanda regionlarda icrasını icrasını davam etdirirlər.

Odur ki, əziz gənclər heç vaxt öz ideyalarınızı reallaşdırmaqdan çəkinməyin, unutmayın ki, böyük uğurlara yol kiçik nəaliyyətlərdən keçir".

**"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı:** "Bizim gənclərimiz ağlını, ruhunu, istedadını, bacarığını, bu günü və gələcəyini öz ölkəsinə xidmət etməyi təməl hədəf görən, mənsubu olduğu millətin dəyərləri ilə zirehlənmiş bir vətənpərvərlik abidəsidir. Onlar hər bir sahədə yaxşı şəkildə yetişir. Milli-mənəvi dəyərlərimizə, tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə sahib çıxır. Ailəsinə və mənsubu olduğu millətimizə layiq olmaq üçün durmadan çalışır.



Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən, ölkəmizdə əhalinin say nisbətində gənclərin payı 22,4 % təşkil edir. Bu özlüyündə böyük bir kütləni əhatə edir və bizim xalq olaraq gələcəyə əmin addımlarla irəliləməyimizə əsas verir. Daha yaxşı Azərbaycan üçün gənclərin inkişafına diqqət ümummilli maraqlara xidmət edir. Azərbaycanın gənclər siyasəti artıq 30 ilə yaxındır ki, uğurla davam etdirilir. Gənclərin ehtiyaclarının müəyyən olunması, problemlərinin həlli, onların layiqli vətəndaş, rəqabət qabiliyyətli kadr kimi yetişməsi, məşğulluğunun təmin olunması, fiziki sağlam olması, milli-mənəvi dəyərlərimizin yaşadılması, ölkəmizin, millətimizin daim kənar təsirlərdən qorunması üçün vətənpərvər ruhda yetişdirilməsi fonunda müntəzəm və nəzərə çarpacaq dərəcədə işlər görülür. Gənclər və xaricdə təhsil sahəsində dövlət proqramlarının müntəzəm təşkili gənclərin hərtərəfli inkişafına xidmət edən, onlara yeni qapılar, imkanlar açmaqla gələcəyimizə hesablanmış addımlardır.

Gənclərin sosial həyatda aktiv olması, cəmiyyətin üzləşdiyi problemlərin həlli üçün sahib olduqları mütərəqqi ideyaların dəstəklənməsi, istedadlı gənclərin üzə çıxarılması və tanıdılması onlara olan diqqət və qayğının təzahürüdür. Bu gün cəmiyyətimizdə kifayət qədər istedadlı, yaradıcı, savadlı, bacarıqlı gənclərimiz var. Nə qədər yad səslənsə də, xüsusilə regionlardakı gənclərimizdə bu qabiliyyətləri daha çox görürük. Düzdür, bəzi hallarda ideyalar tam yetişməmiş, qeyri-formal təhsil prinsiplərindən məlumatsız, icra mexanizmi hesablanmamış şəkildə təqdim edilir. Ancaq bunları da qaydaya salmaq mümkündür. Cəmiyyətin inkişafı, sosial problemlərin həlli, inklüziv mühitin yaradılması üçün təkcə dövlət qurumları deyil, vətəndaş cəmiyyəti, özəl və biznes müəssisələri, eləcə də, media mənsublarının birgə çalışması lazımdır.

Bu gün ən parlaq ideyalar, yaradıcı təkliflər, layihələrdə gənclərimizin rolu daha böyükdür. Ona görə də, gənclərin bu sahədə dəstəklənməsi, öz ideyalarını, layihələrini həyata keçirməsi üçün münbit şəraitin yaradılması vacib məsələdir. Ölkə başçısının gənclərə xüsusi diqqət və qayğısı olaraq, "Azərbaycan Gəncliyi" Dövlət Proqramlarının qəbul olunması, regionlarda gənclər evlərinin karyera və inkişaf mərkəzlərinin fəaliyyətə başlaması, Azərbaycan Gənclər Fondunun təsis olunması, onun daxilində gənclərin fərdi təşəbbüslərinin dəstəklənməsi imkanları yaradılıb. İndiyə kimi minlərlə gənc yaradıcı ideyalarını məhz bu imkan vasitəsi ilə reallaşdırıb, digər həmyaşıdlarının, yaşadığı ərazinin və insanların faydalanmasına səbəb olub. Sosial təşəbbüslər daha yaxşı cəmiyyətin qurulmasının bazasında dayanır.

Bu gün bizim gənclərimiz yaradıcılıqdan biznesə, sosial problemlərdən ətraf mühit məsələlərinə, texnologiyadan asudə vaxtın səmərəli təşkilinə kimi bir çox istiqamətlərdə ideya və təkliflərlə qaynayır. Onları dinləmək, ideyalarını qəbul edib, yön vermək və dəstəkləmək lazımdır. Xüsusilə gənclərlə işləyən qurumlar, ali təhsil müəssisələri, şirkətlər (koorporativ sosial məsuliyyət çərçivəsində) gənclərin dəstəklənməsi, onların yardıcı ideya və təkliflərinin həyata keçirilməsində rol alması çox önəmlidir. "İrəli" İctimai Birliyi olaraq biz də gənclərimizin sosial təşəbbüslərinin dəstəklənməsi istiqamətində durmadan çalışırıq. Bunun nəticəsidir ki, ireli.az saytında (http://ireli.az/ideabanki) "İdeya Bankı" yaradılıb. Gənclər həyata keçirmək istədikləri təklifi həmin banka yerləşdirir və komandamız tərəfindən baxılaraq, istiqamətlər verilməklə təşəbbüsü həyata keçirmək üçün lazımi tədbirlər görülür. Onu da qeyd edək ki, indiyə kimi yüzlərlə gəncin təşəbbüsləri tərəfimizdən dəstəklənib. Bəzi ideyalar olur ki, onların təşkili praktiki olaraq ya mümkünsüz, ya da bizim tərəfimizdən icra edilə bilməyən təşəbbüslər kateqoriyasına düşür. O halda biz həmin gəncləri aidiyyatı qurumlara yönləndiririk.

Fürsətdən istifadə edərək gənclərimizi sosial aktiv, təşəbbüskar olmağa, "İrəli"yə qoşulmağa çağırıram".

**"Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin sədri Ülviyyə Axundova:** "Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf, inteqrasiya onlarla birlikdədir və yaxşı gələcək gənclərin əlindədir.

Azərbaycanda gənclər sahəsində Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasət gənclərin potensiallarının kəşf olunmasına, inkişaf mühitinin təmin edilməsinə şərait yaradır. Həmin siyasətin nəticəsidir ki, bu gün gənclər yeni ideyalar, layihələr, fikirlər irəli sürür. Bu ideyalar təhsil, texnologiya, aqrar və s. sahələrdə fərqli inkişaf mərhələlərində olur. Təbii haldır ki, bəziləri özünü doğrultsa da, bəzilərində bu alınmır. Gənclərin ideya və təşəbbüslərinin sayı artdıqca bəzən tələb-təklif çoxluğu, məlumatsızlıq, ideyanın düzgün dəyərləndirilməməsi kimi problemlər yaşana bilir. Məhz buna görə yaradılan yeni imkanlar artıq Respublikanın şəhər və ya rayonundan asılı olmayan hər bir gənc üçün əlçatan olmasına və ideyanın dəstəklənməsinə xüsusi önəm verilir.



"Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi də gənclərin dayanıqlı inkişafı, yeni təşəbbüslərinin, ideyalarının dəstəklənməsi üçün "Youth Inc. Sahibkarlıq Proqramı çərçivəsində bir sıra layihələr həyata keçirir və hal-hazırda davam edir. Bu layihələr həm iştirakçı sayına, həm əhatə dairəsinə, həm də öz funksionallığına görə bu günə kimi həyata keçən bir çox layihələrdən fərqlənir. "DVC" Dövlət Gənclər siyasətini dəstəkləyən və bu siyasətin inkişafında yaxından iştirak edən gənclər təşkilatıdır. Təşkilatımız ölkədə dövlətin gənclər siyasəti, ölkə gənclərinin sağlam inkişafı üçün çalışır".

***Ayşən Vəli***





# Sonu görünməyən MÜHARİBƏ






## ABŞ Ukraynaya kömək yox, Rusiyaya zərər vermək istəyir

Dünyanın diqqəti Ukraynada gedən müharibədən bir an belə yayınmır. Hər kəs düşünür, əccəba, Rusiyanın başlatdığı müharibə nə vaxta qədər davam edəcək? Qalib olacaqmı, onda məğlub kim olacaq, Qərbmi? Rusiyanın döyüşdüyü tərəfin Qərb olduğunu təsadüfən çəkmədik, çünki, Ukrayna NATO və müttəfiqləri olmasaydı bu qədər dözməzdi. Hətta son məlumatlara görə, artıq hücum edən tərəfə çevrilməzdi. Dünən Zelenski bir neçə yaşayış məntəqəsinin işğaldan azad edildiyi barədə xəbər verdi və digər kənd və qəsəbələrin də Rusiya ordusundan təmizləndiyini də anons etdi, lakin sonuncuların Baş Qərargahın təsdiqindən sonra elan edəcəyini bildirdi.

## Sual yenə açıq qalır, müharibə nə vaxt bitəcək?

ABŞ Müdafiə Nazirliyinin rəhbərinin keçmiş müşaviri, polkovnik Duqlas Makqreqorun sözlərinə görə, Ukrayna itirilmiş ərazilərini qaytara bilməyəcək. "Heç kim hər hansı ərazilərin qaytarılması barədə danışmadı. Kiyev bunu edə bilməyəcək, mümkün deyil. Əminəm ki, Bayden də bundan xəbərdardır", - o, Judging Freedom kanalında deyib.

Makqreqor qeyd edib ki, ABŞ ilk növbədə Ukraynaya kömək yox, Rusiyaya zərər vermək istəyir. Onun sözlərinə görə, Ukrayna tərəfi vəziyyəti diplomatiya yolu ilə həll etmək istəsə, Vaşinqton buna imkan verməyəcək. "Vaşinqton Zelenskinin arxasındadır. Vaşinqton Zelenskiyə deyir ki, mübarizəni davam etdirsin", - o vurğulayıb.

Bir müddət əvvəl Amerikanın "Politico" qəzeti yazıb ki, Kiyev hərbi yolla Krımı ələ keçirə bilsə, yerli əhalinin müqaviməti ilə üzləşməli olacaq. Qəzet qeyd edib ki, Kiyev rejimi əhalisinin 65%-nin ruslar olduğu Krımda ictimai həyatın əksər aspektlərində ukrayna dilinin istifadəsində israr edə bilməyəcək.

Qeyd edək ki, Rusiya prezidenti Vladimir Putin fevralın 24-nə keçən gecə Donbassda xüsusi əməliyyat keçirmək qərarına gəldiyini elan etdikdən sonra vəziyyət gərginləşib. "Donetsk və Luqansk Xalq Respublikaları"nın rəhbərləri Denis Puşilin və Leonid Paseçnik Rusiya Federasiyasının prezidentindən Ukrayna Silahlı Qüvvələrinin təcavüzünü dəf etmək üçün kömək istəyiblər.

## Rusiya xəfifə alınacaq ölkə deyil

Türkiyənin "En Son Haber" nəşri isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan sitat gətirib. Balkanlara səfəri çərçivəsində verdiyi açıqlamada Ərdoğa bildirib ki, Rusiyanı xəfifə almaq ən yanlış addım idi: "Rusiya Avropanın əsas enerji təchizatçısıdır və onu sanksiyalarla cavab addımlarına sövq etmək ağlabatan deyil".

Ərdoğan bildirib ki, Qərb təxribatçı siyasət yürüdür, Rusiyanı ciddiyə almamaq isə səhvdir. Onun fikrincə, Avropa qışdan necə çıxacaqlarını fikirləşib.

Bosniya və Herseqovinadakı diplomatik təmaslardan sonra Türkiyə liderinin ikinci dayanacağı Serbiya olub. Belqradda Serbiya Prezidenti Aleksandar Vuçiç Türkiyə dövlət başçısını Prezident sarayında rəsmi mərasimlə qarşılayıb və danışıqlardan sonra liderlər mətbuata müraciət ediblər.

Bu ilin fevral ayından bəri davam edən Rusiya-Ukrayna hərbi qarşıdurması ilə bağlı gündəmdə olan enerji böhranını dəyərləndirən Ərdoğan Qərbin təxribatçı siyasət yürütdüyünü bildirib və qeyd edib: "Türkiyə hər zaman mövqeyinə sadiq qalıb. Rusiya və Ukraynaya qarşı balanslaşdırılmış siyasətə əməl edəcəyik və davam edəcəyik. Bu münaqişənin qalibi yoxdur, amma itirənlər çoxdur. Qərb təxribata əsaslanan siyasət yürüdür".

Türkiyə prezidenti vurğulayıb ki, nə qədər ki, düşmənçilik siyasəti var, dinc təşəbbüslərdən nəticə əldə etmək mümkün deyil: "Qalib varmı? Qalib yoxdur, amma itirənlər çoxdur. İnsanlar ölür. Məsələnin maliyyə tərəfini demirəm. Maliyyə məsələsinə toxunanda nə eşidirik? Bəziləri deyir ki, Ukraynaya bu qədər pul veriblər, bəziləri isə digər rəqəm söyləyirlər " .

Çıxışına davam edən Ərdoğan: "Yaxşı, bu pul haradadır? Çox səs-küy var, amma mənası azdır. Deyirlər ki, silah verilir. Əslində bütün zibil Ukraynaya göndərilir. Məsələnin bu tərəfinə baxanda deyə bilmərəm ki, qazanan Rusiya və ya Ukraynadır. Lakin Bütün bu müddət ərzində bizim sadiq qaldığımız siyasət Moskva ilə Kiyev arasında münaqişənin tezliklə sona çatması üçün səyləri nəzərdə tutur. Amma görünür, bu münaqişə tezliklə bitməyəcək. Rusiyanı ciddi qəbul etməyənlər üçün deyə bilərəm ki, yanılırsınız. Rusiya xəfifə alınacaq ölkə deyil. Nə oldu? İndi Rusiya qazı kəsdi. Qarşıdan qış gəlir. Niyə bu haqda düşünmədiniz? Rusiyanın əlində belə vacib resurs var. Amma siz bu haqda düşünmədiniz. İndi ehtiyatların necə olması ilə bağlı mübahisələr gedir.Təbii ki, hamı ona hücum edəndə Rusiya mövcud imkanlardan istifadə edəcəkdi. Bu qədər sadə. Biz ümid edirik ki, ən qısa zamanda bir nəticəyə gəlib bu problemə son qoya biləcəyik, bundan sonra dünyada yenidən sülh hökm sürəcək".

## Putin "qurdun quyruğu" barədə

Vladimir Putin Vladivostokda keçirilən Şərq İqtisadi Forumunda çıxışı zamanı Qərbin Rusiyaya şərtlər diktə etmək iqtidarında olmadığını vurğulayıb: "Rusiya neftinin və qazının ixracını məhdudlaşdırmaq istəyi heç bir yerə aparmayacaq. Rusiya Federasiyası sadəcə olaraq bu məhdudiyyətləri tətbiq edən ölkələrə ixracı dayandıracaq. Absurd və əlverişsiz şərtlərlə ticarət etməyəcəyik. Nəticədə Qərb yenə öz əməllərindən zərər çəkəcək. Bəs, müqavilələrə zidd olan siyasi xarakterli qərarlar veriləcəkmi? Bəli, biz onları sadəcə yerinə yetirməyəcəyik! Ümumiyyətlə, biz heç nə verməyəcəyik: nə qaz, nə neft, nə kömür, nə də mazut. Biz heç nə çatdırmayacağıq. Və deyəcəyimiz yalnız bir şey qalacaq: "Don, don, canavar quyruğu"".

Rusiya Hindistan və Çinə neft və qaz tədarükünü artırıb. Onlar isə fürsətdən istifadə edərək neft və mavi yanacağı daha ucuz qiymətə alırlar. Avropa isə öz hərəkətlərinə görə daha çox enerji qıtlığı ilə üzləşəcək.

**V.VƏLİYEV**

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan Azərbaycan dövləti əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirir. Hazırda ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Əhalinin əsas ərzaq məhsulları ilə etibarlı təmin olunması və ölkənin məşğul əhalisinin böyük hissəsinin çalışdığı aqrar sektorun inkişafı siyasətinin əsası 90-cı illərin ortalarında qoyulub. Azərbaycanda MDB ölkələri arasında ən sürətli torpaq islahatları həyata keçirilib, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılıb, beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı və BMT-nin Ərzaq Təşkilatı (FAO) ilə birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanıb. 2001-ci ildə ölkə rəhbərinin Sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilib. Bu proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artıb. Sonradan Azərbaycanda sürətli iqtisadi inkişafın başlaması nəticəsində aqrar sahənin daha da inkişaf etdirilməsi üçün görülən tədbirlər də genişlənib. Aqrar sahənin inkişafı Azərbaycan prezidentinin iqtisadiyyatın



# Azərbaycanda aqrar sektor prioritet istiqamətlərdəndir



şaxələndirilməsi strategiyasının başlıca istiqamətlərindən birini təşkil edib. Belə ki, ölkə əhalisinin təxminən 1,5 milyon nəfərinin aqrar sektorda çalışması baxımından bu sahənin inkişaf etdirilməsi həm də qeyri-neft sektorunun inkişafı, işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir.

## Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir

"Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir. Çünki, birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir".Bunu Prezident İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu qəbul edərkən deyib.Dövlətimizin başçısı qeyd edib ki, bu ilin üç ayında Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub: "Əlbəttə ki, bu, məşğulluq baxımından əhəmiyyətlidir. Çünki əhalimizin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Ona görə də bu insanlar üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir. Siz yəqin ki, bizim islahatlarımızdan, hökumətin fermerlərə verdiyi subsidiyalardan, dəstəkdən xəbərdarsınız. Fermerlər hər hansı vergidən, o cümlədən torpaq vergisindən azaddırlar. Həmçinin biz fermerlərə güzəştli, aşağı faizlərlə kreditlər veririk. Bütün bunlar kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin əlbəttə ki, biz xüsusilə indi, ərazilər işğaldan azad edildəndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik".

## Azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var

Mütəxəssislərin hesablamalarına görə, işğal kənd təsərrüfatına 20 milyard manata yaxın ziyan vurmuş, aqrar sahənin inkişafını xeyli dərəcədə ləngitmişdir. Ancaq bütün bunlara baxmayaraq, 2003-cü ildən 2020-ci ilə kimi Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, kənd təsərrüfatı isə 2 dəfə artmışdır. 2019-cu ildə əvvəlki ilə müqayisədə 7,2 faiz artım əldə edilmişdir ki, bu da aqrar sahədə ildən - ilə inkişafın göstəricisidir. İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) açıqladığı məlumata görə, rayonlarımızın işğal olunması nəticəsində 280 min hektar meşə, 1 milyon hektara yaxın məhsuldar torpaqlar, o cümlədən 127 min 700 hektar suvarılan torpaq, 34 min 600 hektar üzüm və meyvə bağları sahəsi, 1200 kilometr irriqasiya sistemi işğalçıların əlinə keçib, işğal edilən ərazilərdən kənarda yerləşən 5 rayonda 120 min hektar əkinəyararlı torpaq sahəsi suvarılmamış qalıb və praktiki olaraq təsərrüfat dövriyyəsindən çıxarılıb. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara aparılıb.Mərkəzin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, işğal olunmuş ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi: "İndi isə Ermənistanın işğal nəzarəti altında saxlamasına baxmayaraq, bu zona Ermənistan üçün səmərəsiz olub. Təkcə Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaqların olmasına baxmayaraq, bu ərazilərin cəmi 7 faizində istifadə edilib. Belə ki, çayların əsasən şimal hissədə yerləşməsi, əkin sahələrinin isə cənubda olması və həmin ərazilərdə yeraltı suların daha dərində yerləşməsi, işğaldan əvvəl mövcud olan irriqasiya sisteminin məhv edilməsi bu ərazilərin istifadəsiz olaraq qalması ilə nəticələnib. Əkin sahələrində məhsuldarlıq aşağı səviyyədə olub və hər hektardan cəmi 10-12 sentner taxıl götürülüb. Halbuki bu rəqəm işğaldan əvvəl 21-25 sentner idi. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda, burada emal və ərzaq sənayesinin inkişafı potensialı var".Bəli, bu gün dövlət başçısının söylədiyi kimi, son illərdə ərzaq təhlükəsizliyi istiqamətində bir çox işlər görüldüyünü qeyd edərkən bildirib ki, ən əsas məsələ azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var: "Azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var. İndi hər kəs yaxşı görür və bilir ki, ərzaq təhlükəsizliyi ön plana çıxır. Son illərdə bu istiqamətdə bir çox işlər görülüb. Ancaq hələ ki, biz özümüzü tam şəkildə, yəni, 100 faiz ərzaqlıq buğda ilə və bütövlükdə taxılla təmin edə bilmirik. Əminəm ki, görüləcək əlavə tədbirlər nəticəsində idxaldan asılılıq böyük dərəcədə azalacaq. Burada əsas məsələ həm məhsuldarlıq, sudan düzgün istifadə edilməsi, eyni zamanda, azad olunmuş torpaqlarda əkin yerlərinin düzgün seçilməsi və orada aqrotexniki xidmətin göstərilməsidir".

Yeri gəlmişkən, Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə dediyi kimi: "Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir".

Bir sözlə, torpaqlarımızın azad edilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək. Ölkənin əkin dövriyyəsi artacaq, strateji əhəmiyyətli su anbarlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yüz min hektarlarla sahənin suvarılması reallaşacaq. Həmçinin, azad edilən torpaqlarda üzümçülük, taxılçılıq, pambıqçılıq və heyvandarlığın inkişafı üçün çox böyük potensial var. Bu potensialdan düzgün yararlanmaqla, eyni zamanda, aqrar emal sənayesini genişləndirməklə kənd təsərrüfatının davamlı inkişafı təmin olunacaq.Belə ki, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq hazırda işğaldan azad edilən ərazilər üzrə Strateji Fəaliyyət Planı, habelə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar işlənib hazırlanır və bütün ərazilərin, habelə şəhərlərin bərpasının vahid konsepsiya əsasında həyata keçirilcəyi planlaşdırılır. Həmçinin, işğaldan azad edilən ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınacaq. Həmin torpaqlarda heyvandarlıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və taxılçılıq sahələrinin inkişafı diqqətdə saxlanılacaq. Bir sözlə, bu gün Azərbaycanın son 19 ildə əldə etdiyi möhtəşəm, əzəmətli inkişafı ölkə Prezidenti İlham Əliyevin adı və Onun, bilavasitə həyata keçirdiyi düşünülmüş siyasətlə bağlıdır. On doqquz il... Bu on doqquz il ərzində Azərbaycanda həyat günbəgün dəyişir, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yenilaşir. Və bu gün Azərbaycan vətəndaşı bu uğurları görür və 2022-ci ilin də zəfərlər ili olacağına və ölkəsinin bundan da böyük uğurlar əldə edəcəyinə inanır.Göründüüü kimi, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Əlbəttə ki, dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı görülən işlərin süreti bundan sonra daha da artırılacaqdır. Çünki kənd təsərrüfatının inkişaf etdirilməsi, dövlətin iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevrilməsinə stimul verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

# Böyük Qayıdışın ilk karvanı Ağalıdan başladı

*İlham Əliyev: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər"*



44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə nəticəsində Azərbaycanın işğal altında olan torpaqları erməni təcavüzkarlarından təmizləndi və tezliklə yeni bir həyat başlandı. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı Ordusu 30 ilə yaxın həsrətə son qoydu və həmin zaman kəsiyində hər cəbhədən aldığımız qələbə xəbərləri insanlarda böyük sevinc hissi yaşadırdı və hər gün eşitdiyimiz qələbə sorağı bizi Zəfərə doğru aparırdı. Dövlət başçısının torpaqlarımızın işğalçılardan azad olunması ilə bağlı xalqa yeni qələbə sevincini yaşatması müharibənin tezliklə bitəcəyindən xəbər verirdi. Əlbəttə ki, qələbə əzmi ilə vuruşan əsgər və zabitlərimiz yalnız irəliyə doğru addımlayırdılar. Ölümün gözünə dik baxmağı bacaran vətən oğulları bir qələbədən yeni bir qələbəyə doğru irəliləyirdilər. Bu güc inamdan irəli gəlirdi. Bu güc ordunun gücü idi. Bu güc haqq və ədalətdən aşılanan güc idi. İşğaldan azad edilmiş şəhərlər, kəndlər, qəsəbələr və bu ərazilərdəki mədəni abidələr bərpa olunur, abadlıq-quruculuq işləri aparılır. İrimiqyaslı layihələrin reallaşması tezliklə bu ərazilərin müasir şəhərə, mərkəzə çevriləcəyinə əminlik yaradır. Bu gün işğaldan azad olunan digər ərazilərimdə genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verilib. "Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar", - deyə Prezident bildirmişdir. Dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfəri və yeni təməllərin qoyulması, abadlıq və quruculuq işləri ilə yaxından tanış olması, yerində tapşırıq və göstərişlərin verilməsi tezliklə bu ərazilərin sakinlərinin öz ata-baba yurdlarına qayıdacaqlarından xəbər verir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edildi. "Bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir", - deyə Prezident bildirib.

## "BU GÜN BİZ GƏLƏCƏYİ YARADIRIQ, ÖZ ƏLLƏRİMİZLƏ YARADIRIQ"

Bəli, Cənab Prezidentin bildirdiyi kimi, "Müharibə artıq tarixdə qaldı Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq". Böyük Qaydışın ilk karvanı bir neçə ay bundan yol aldı. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu.

## BÖYÜK QAYIDIŞIN AYAQ SƏSLƏRİNƏ AĞALI QUCAQ AÇDI

Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılacağını bildirib: "Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf". Belə də oldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Xüsusi olaraq vurğulayaq ki, Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının da təməlini qoydu. Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idi. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Artıq Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürüldü.

Sentyabrın 7-də isə Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə start verildi. Keçmiş məcburi köçkünlərin 12 ailədən (63 nəfər) ibarət növbəti qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Böyük Qayıdışa uyğun olaraq ikinci mərhələdə daha 25 ailənin (125 nəfər) köçürülməsi planlaşdırılır. On iki ailədən ibarət birinci köç karvanı sentyabrın 7-də doğma yurdlarına yola düşüblər. Digər 13 ailə (62 nəfər) isə sentyabrın 10-da Ağalı kəndinə köçürüləcək.

## MÜASİR AĞALI KƏNDİ

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər. Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə birinci mərhələdə köçürülən 41 ailə (201 nəfər) hər cür şəraitlə təmin olunub.Ağalı kəndində "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərir ki, kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin edilir. Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mümkün rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır. Ağalı kəndində 200 evdən ibarət gözəl kənd salınıb. Bu gün artıq müharibədən qısa bir zaman keçmiş olsa da ərazilərdə abadlıq-quruculuq işləri uğurla reallaşıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlar yenidən qurulur və əvvəlki zamanına qayıdır və tezliklə yolunu həsrətlə gözlədiyi əzəli sakinlərini Ağalı kimi, Şuşa, Kəlbəcək, Laçın və digər ərazilər sevgi ilə qarşılayacaq.

**Zümrüd BAYRAMOVA**

## 102-yə ən çox hansı məsələlərlə bağlı zəng edilir?




*QURUMDAN AÇIQLAMA VERİLDİ*

"102 Zəng Mərkəzinə müxtəlif məzmunlu müraciətlər daxil olur". Bu barədə DİN mətbuat xidmətindən SİA-nın sorğusuna cavab olaraq bildirilib. Daxil olan bütün müraciətlərə çevik reaksiya verilməklə müvafiq Baş İdarə, idarə, şöbə bölmələrə yönəldilir. Heç bir müraciətə "əsassızdır, səhvdir", deyə etinasız yanaşılmır, müraciət müəllifinə belə hallarda izahedici məlumat-cavablar verilir.

Yalan məlumat vermə halı çoxluq təşkil etmir, çünki yalan məlumat vermə hüqiqi məsuliyyət yaradır. Cəmiyyətə məlumdur ki, verilən hər bir məlumat mütləq yoxlanılır. 102 Zəng Mərkəzinin fəaliyyəti elə təşkil olunub ki, bütün daxil olan zənglər, müraciətlərin rəqəmsal qeydiyyat-uçotu aparılır. Daxil olan müraciətlər sırasında onlayn dələduzluq, sosial şəbəkələrlə bağlı vətəndaşların qarşılaşdıqları neqativ hallar, məişət səs-küyü çoxluq təşkil edir.

**Ayşən Vəli**

## İşğaldan azad olunmuş ərazilərin iqtisadi imkanları NƏLƏRDİR?

"Zəngəzur iqtisadi rayonunun dayanıqlı sosial iqtisadi inkişafında dövlətimizin infrastruktur təminatının reallaşdırılması ehtiyac var ki, bu istiqamətdə ölkə prezidenti İlham Əliyevin tapşırığı ilə müəyyən işlər görülür". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Elşad Məmmədov deyib.



Onun sözlərinə görə, digər tərəfdən daxili özəl investisiya institutunun yaranması prosesindəki problemlər sözsüz ki, sosial iqtisadi inkişafa öz mənfi təsiri göstərir: "Ona görə də daxili və özəl investisiya insitutunun inkişaf etdirilməsinə böyük ehtiyac var. Buna görə bank kreditləşməsində ciddi dəyişmələr aparmalıyıq ki, özəl sektorun bank kreditləşməsinə çıxış imkanları genişləndirilsin. Nəzərə almaq lazımdır ki, işğaldan azad olan ərazilərdə böyük su imkanları mövcuddur. Bu isə öz növbəsində həm su təminatının, həm də sosial-iqtisadi inkişafın mövcudluğunu şərtləndirir. Həm də enerji sektoru ilə bağlı böyük imkanlar açır. Çünki sənayeləşmə və sosial iqtisadi inkişafla bağlı məsələlər enerji təminatına yaxın illərdə bölgədə tələbatın xeyli dərəcədə artmasını şərtləndirəcək. Həmin bölgələrə prioritet istiqamət kimi yanaşılması yaxın illərdə həmin bölgənin inkişafının təmin edilməsinə öz töhfəsini verməlidir. Bununla yanaşı biz unutmayaq ki, Azərbaycanda daxili bazarda hələ alıcılıq qabiliyyətinin artırılması üçün imkanlar var. Çünki pul kütləsinin artımı ilə bağlı imkanlar olduqca çoxdur. Digər tərəfdən regional iqtisadi əməkdaşlıq dərinləşdikcə xarici bazarlar da genişlənir. Belə olduğu halda həmin bölgədə istehsal olunan məhsulların xarici bazarlara çıxışı prioritet məsələlərdən biri olmalıdır. Biz bu amilləri nəzərə alaraq işğaldan azad edilmiş ərazilərə o cümlədən Zəngəzur iqtisadi rayonuna innovativ yönümlü investisiya axınlarının həcmini sürətlə artırmalıyıq. Bu proseslərin reallaşdırılması Zəngəzur iqtisadi rayonunun mövcud olan potensialının yüksəlməsində önəmli təsiredici effekt verməlidir".

**Qönçə Quliyeva**

# Yağlı məktub



**Çox düşündüm, çox daşındım, qərara gəldim ki, əziz oxucularıma bir məktub yazım, özü də yağlı məktub olsun ki, dediklərimi hafizələrinə həkk etsin ki, bəlkə bu bəlalardan xilas ola bilərlər.**

Hə, bu yağlı məktub elə ən başlıca qidamız olan yağla bağlıdır. Nənəm həmişə deyərdi ki, yağ evin "ana həddidir". Yəqin mənası belə olarmış ki, yağ evin ən vacib qidasıdır. Allah rəhmət eləsin nənələrimizə. Yazıq arvadlar bu sözü o zaman deyirdilər ki, hər gün qollarını çırmayıb inəklərdən litrlərlə süd sağırdılar. Həmin südü nehrədə çalxayıb yağ düzəldirdilər. Bir kiloqram yağ əldə etmək üçün günlərlə əmək sərf edirdilər. Yadımdadır, hələ yayda aran kəndlərinin camaatı dağ kəndlərinə yaylağa gedirdilər ki, mal-heyvan bol otdan yeyib yaxşı süd versin ki, onlar da qışın yağını tuta bilsinlər.

O vaxtlar nənələrimiz payız girəndə yaylaqdan bidon-bidon yağla qayıdırdı. İl uzunu da yeməyi həmin yağla bişirir, yeyir, Allahın verdiyi ömrü sağlam yaşayıb, vaxtları çatanda dünyaya əlvida deyirdilər.

Hə, gəlim çıxım mətləbə. İndi market-mağazalarımızda satılan kərə yağlarından bəhs edən bir məktubu sizə yazmaqda məqsədim bu oldu ki, birdən elə bilərsiniz ki, həmin ananənələrimizin nehrə yağları kimi keyfiyyətlidir ha, o yağlar. Dedim birdən düşünərsiniz ki, yəqin o vaxtlardan xeyli zaman keçib, süd ucuzlaşıb, ya nə isə baş verib ki, bu kərə yağları belə ucuz qiymətə başa gəlir.

Baxırsan indi marketlərdə onlarla çeşiddə kərə yağı var. Kimin də hansına gücü çatırsa, ondan alıb aparır evinə, həm səhər yeməyində, həm də yeməklərin hazırlanmasında istifadə edir. Məsələn kərə yağı var ki, 5 kiloqramı 30-35 manat, yağ var ki, 1 kiloqramı 15-20 manat, yağ var ki, 1 kiloqramı 7-8 manatdır.

Hə, kərə yağının hazırlanmasını o rəhmətliklərdən görməsəydik, elə hamımız marketlərdə ən ucuz kərə yağlarından alardıq ki, artıq qalan pulumuzu da digər dərdi-sərimizə verək. Axı görmüşük. Ya gözlərimiz gərək kor olardı ki, nənələrimizin bir kilo yağdan yana nə qədər süd sərf etdiyini, əmək verdiyini görməzdik, ya da Allahın işidir də, göz verib, biz də baxıb görmüşük. Görmüşük ki, nənələr 2-3 günün südünü yığıb nehrəyə, sonralar isə xüsusi yağ maşınına töküb yağı necə istehsal edirdilər. Təxminən 20 litr süd lazım idi ki, bir kiloqram yağ əldə edə biləsən.

O zamanlar süd də ucuz idi, ona görə yağ da bir o qədər baha deyildi. İndi marketlərdə kərə yağı alarkən, əziz bu məktubu oxuyanlar, birinci qiymətinə baxın. Baxdınızmı? Südün qiymətini də yaxşı bilirsiniz. Tez hamınızın əlində olan telefonun kalkulyator bölümünə girin, həmin yağın 1 kiloqramının qiymətini bölün bir kiloqram südün qiymətinə. Onda görəcəksiniz ki, həmin yağ neçə litr süddən hazırlanıb. Və bir də mənim bu məktubda nənələrimizdən gətirdiyim misalı yadınıza salın. Görəcəksiniz ki, nənələrimiz bir kiloqram yağ üçün 20, bəzi hallarda 25 litr süd götürürdülərsə, sizin almaq istədiyiniz yağın qiyməti cəmi 5-6 litr südün qiyməti edir, ya etmir.

Hə, elə bu an anlayacaqsınız ki, evinizə yemək üçün yox, hansısa bir tikiş maşınını, ya avtomobilinizi yağlamaq üçün texniki yağ alırsınız. Bax bunu əsla unutmayın. Yox, əgər bu məktuba məhəl qoymayıb söylədiklərimə məna verməsəniz, buyurun, o marketlər, o da siz, o da çeşid-çeşid yağlar. Alın, ala bildikcə. Kiloqramı təxminən 5, 8, 12, 13, 15, manata o qədər çeşidli yağ var ki. Hamısı da guya kərə yağlarıdır.

Alın aparın, səhər də deyin, yeməklərinizi də bişirin. Amma bir məsələni unutmayın ki, bu yağlar sizi o dünyaya o qədər yaxınlaşdırır ki... Hər gün ölümə bir addım, bir addım, sabahı da o dünyada. Odur ki, bu məktubu yaxşı-yaxşı oxuyun, yazıqsınız, canınızın qədrini bilin və sizə təklif olunan yağların hamısından almaqda aldanmayın. Ən azından qiyməti 15 manat olan kərə yağına ümid etmək olar. Bilirəm, həm də yaxşı bilirəm ki, deyəcəksiniz ki, bu qiymətə nə qədər yağ alaq ki bizi maaşdan-maaşa görsün. Hə, onun da cavabı var. Ucuz alıb çox yeməkdənsə, bahalı alıb az yeyin. Amma bilin ki, yediyiniz sizi ölümə aparmır, Allahın verdiyi ömrü yaşamağa aparır.

Yağlı məktubum bu qədər. Sizləri istəməsəydim, heç bu məktubu da yazmazdım. Lakin istəyirəm ki, yazıram. Ümidvaram ki, sözlərimi dinləyəcək və "ana hədd" olan bu qidadan elə ana-nənələrimizin qaydasınca istifadə edəcəksiniz. İnşallah.

***Mətanət MƏMMƏDOVA***

# 2022-ci ilin payızında hansı geyimlər dəbdədir?

**Payızın gəlməsinə sayılı günlər qalmış Paris, Nyu-York və London Moda Həftələrində nümayiş olunan brendlər 2022-ci ilin payız trendlərini dəbsevərlərlə bir araya gətirib. Hər il olduğu kimi bu dəfə də canlı rənglərin ön planda olduğu bir moda ili müşahidə olunur. Zaman zaman vitrinlərdə olmağı sevən parlaq və neon rənglər bu il də trendlər arasında olacaq.**



## Canlı rənglər ön plandadır

Gənc və aktiv bir üslub yaratmağa kömək edən çəhrayı tonlar, demək olar ki, hər il olduğu kimi hələ də üstünlük təşkil edir. Mövsümün dəb keçidlərini ehtiva edən bu tonları özü kimi canlı və ya yumşaq rənglərlə saxlayaraq, bu payızda zamansız və sadə harmoniya əldə edə bilərsiniz.

## Pastel tonları

Başdan sona qədər yumşaq rəngli keçidlərin üstünlük təşkil etdiyi birləşmələr təmiz və sadə bir üslub üçün şərtdir.

## Tüvit parça qayıdır

Keçən il əsasən rast gəlinən Tüvit parça, bu payız da mağaza kolleksiyalarına daxil edildi.

## Qəhvəyi tonlar payız ruhu ilə gəlir

Qəhvə və torpaq tonları daim payız ruhu ilə xatırlanmağa davam edir. 2022-ci ilin payızında bir çox markanın kolleksiyalarında tez-tez qarşılaşacağımız bu tonlar fərqli toxumalarla birləşəcək.

## Böyük naxışlar

Xarici geyimlər kateqoriyasında görəcəyimiz naxışlı paltolar payız dəbinin sevimlisi olacaqdır.

SİA bu ilin payız geyim və saç dəbi haqqında araşdırma apararaq geyim üzrə mütəxəssis, dizayner, modelyer və stilistlərin fikirlərini öyrənib.

**Stil məsləhətçisi Rena Əliyeva:** "2022-2023-cü illərdə 2000-ci illər dəbinin təkrarını görəcəyik. 2000-ci illərin dəbinə nəzər yetirsək, bu il də özünü göstərən düşükbel və bədənə oturmayan şalvarlar çox populyar olacaq. Bu şalvarların üstünə atletik kəsim ağ rəng maykalar geyilir.



Şalvar modasında geniş düşükbel şalvarların əksinə, bütün bədənə yapışan tulumlar dəbdə olacaq. Bunlar lak, dəri və rezin materialdan olacaq ki, bədənə tam yapışsın. Bir neçə il düşükbel şalvar və tulumlar gəlib getsə də, bu bir yoxlama idi. Tamı-tamına 2022-2023-cü il dəbində bunu daha sıx görəcəyik.

Şalvar və ayaqqabının bütünləşdiyi yeni bir dəb gəlir. Bu dəbin özünü qəbul etdirməyi 1-2 il çəkəcək. Artıq mağazalarda rahatlıqla düşükbel ətək və şalvarlar tapa bilərik. Bir şey dəbdir deyə hər kəs bunu alıb geyinmək məcburiyyətində deyil. Zövqsüz və pis görüntüyə gətirib çıxaran dəb olan geyimi hər kəsin geyinməyə çalışmasıdır.

Ayağı qısa və beli uzun bir qadın geniş düşükbel şalvardan istifadə etsə, çox gülməli və qorxunc bir görüntü ortaya çıxacaq. Dəbdən öncə insan bədənini tanımalı və dəbin içindən özünə uyğun olanı seçib geyməlidir".

**Stilist dizayner Vəfa İsazadə:** "Bu il keçən ilki kimi jiletlər dəbdə olacaq. Altından köynəklə, hətta köynəksiz bel geyinmək aktuallığını bu il də saxlayacaq.

Parça üzərində printli geyimlər də bu il dəbdə olacaq. Parıltılı, qızılı və gümüşü rəng və materialda olan geyimlər də 2022 payız və qış aylarının dəbinə çevriləcək. Qadın kostyumlarda keçən ildən fərqli olaraq ətəkli kostyumlar üstünlük təşkil edəcək.

Üst geyimlərdə isə sırıqlı gödəkçələr və süni xəz dəbdə olacaq. Cins materialdan olan geyimlər bu il də öz dəbini qoruyub saxlayacaq. Trikotaj materialdan olan jemper və donlar daha cox debde olacaq. Bu ilin rəngləri pudra, laym, qırmızı, yaşıl, qəhvəyi, sarı ve həmişəki kimi ağ və qara rənglər aktual olacaq".



**Stlist Sərxan Aslanzadə:** "Bu payız daha çox təbii tonlar üstünlük təşkil edir. Bunlara qəhvəyi tonlar deyirik. Koloristikada ən vacib faktor rəng keçişlərinin sərt deyil, əksinə yüngül keçişlər olmasıdır.



Əslində, saç rəngi insanın dəri tonu ilə uyğunlaşmalıdır. Bu da onun sarışın əsmər olmağından asılıdır. Amma bu ildə ışıltılı rənglərə və öz saç rənginizin alt tonlarına üstünlük veriləcək".



**Dizayner modelyer Şəlalə Maqsudova:** "2022 payız-qış rəngləri yaz-yay rənglərindən biraz fərqlənəcək. Yaz-yay rənglərində göy, qırmızı və yaşıl rənglərdən ibarət olan istər qarışıq, istər güllü, istərsə də assimetrik xətlərlə olan parçalar daha çox idisə, payızda daha çox bu rənglərin 1 tonlu, yəni qatqısız 1 rəng olan parçalar və bir də daha çox pələng dərisini xatırladan parçalar istifadə olunacaq. Qış fəslində isə qara hər zamanki kimi aktual olacaq. Boz rənglər əlavə olunacaq. Bu payızın geyim trendinə ən çox köynəyin, vadalaskaların üstündın geyim üçün formalı jiletlər irəli sürülüb. İstər ətəkdə, istərsə də şalvarda jiletlər daha çox istifadə olunacaq.



Artıq şifon və nazik kətan, ipəklər yerini biraz qalın parçalara verəcək. Qışda isə üst geyimləri üzərinə xəz elementləri ilə işlənilən çox uzun olmayan, bel kəsiyi olmayan paltolar daha gündəmdə olacaq".

***Ayşən Vəli***

# Müharibə qanunlarına zidd əməllər

**Bildiyimiz kimi, sentyabrın 9-u Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 74/275 saylı qətnaməsinə əsasən, Təhsilin Hücumdan Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Baş Assambleyanın Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü elan etməsi barədə yekdil qərarını alqışlayıb və YUNESKO və UNİCEF-i münaqişədən zərər çəkmiş ölkələrdə yaşayan milyonlarla uşağın acınacaqlı vəziyyəti barədə məlumatlı olmağa çağırıb.**

Əlbəttə ki, təhsilin bütün səviyyələrində olan, xüsusilə də həssas qruplara aid bütün şagirdlər üçün inklüziv, ədalətli, keyfiyyətli təhsilin qorunması və təmin edilməsi vacib amillərdəndir. Münaqişə yarandığı bölgələrdə məktəblərin, şagird və müəllimlərin hücumlardan qorunması mütləqdir. Uşaqların təhsil almalarına qarşı yönələn istənilən maneənin, hücuma qarşı sərt mövqe göstərilməli və qarşısı alınmalıdır. Ötən əsrin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində bu acınacaqlı tarixi yaşamışıq. Məktəblərimiz ermənilər tərəfindən dağıdılmış, müəllim və şagirdlərə ziyan dəymişdir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş silahlı təcavüzü zamanı Azərbaycanın təhsil infrastrukturuna ciddi ziyan vurulmuş, mindən çox təhsil müəssisəsi və uşaq bağçasının tamamilə məhv edilmişdir. Azərbaycan ərazisindəki təhsil müəssisələri Ermənistan silahlı qüvvələri tərəfindən mütəmadi olaraq heç bir fərq qoyulmadan atəşə məruz qalıb.

44 günlük Vətən müharibəsi dövründə də dünyanın gözü qarşısında Azərbaycan bu zərbələrə yenidən məruz qaldı. Vurğulamaq yerinə düşər ki, Ermənistan silahlı qüvvələrinin Tərtər rayonun artilleriya atəşinə tutması nəticəsində 18 məktəb binasına ziyan dəymiş, 2 məktəb binası tamamilə yararsız vəziyyətə düşmüşdü. Sinif otaqları, binalar tamamilə dağıdılmışdı. Erməni işğalçıları tərəfindən Gəncə şəhərinin ballistik raketlə hədəfə alınması nəticəsində doqquz məktəbə ziyan dəymişdir. Bu kimi hallar Azərbaycan təhsilinə hücumdur.









44 günlük müharibə zamanı da Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq məktəbləri qəsdən hədəfə alıb, nəticədə 54 məktəbimiz dağıdılıb, 6-15 yaş arası 10 məktəbli faciəvi şəkildə qətlə yetirilib, 16 məktəbli isə yaralanıb. Münaqişəni geridə qoyaraq, Azərbaycan diqqətini bütün uşaqlarımızın təhsil və potensiallarından təhlükəsiz şəkildə istifadə etmələrinə yönəldib. Hazırda biz azad olunmuş ərazilərimizdə məktəblərimizi yenidən tikirik.

1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirmişdir.

Qeyd edək ki, ötən əsrin 90-cı illərində erməni təcavüzü nəticəsində məktəblərimiz işğala, təcavüzə, dağıntıya məruz qalmışdır. Belə ki, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Xocalı, Xocavənd rayonlarının təhsil müəssisələri də dağıdılıb və viran qoyulub. Vurğulamaq yerinə düşər ki, təkcə Qubadlı rayonunda işğaldan əvvəl 61 ümumi təhsil məktəbi, o cümlədən, 33 tam orta, 16 ümumi orta, 12 ibtidai məktəb fəaliyyət göstərirdi. Rayonda 6000-ə qədər şagirdin təhsili ilə 1317 nəfər pedaqoji işçi məşğul olurdu. Qubadlıda uşaq-gənclər idman məktəbi, Uşaq şahmat məktəbi, həmçinin, Uşaq və yeniyetmələrin yaradıcılıq, Texniki yaradıcılıq və Ekoloji Tərbiyə mərkəzləri, Texniki Peşə məktəbi fəaliyyət göstərirdi. Bütün bunlar erməni təcavüzkarlarının əməlləri nəticəsində viran qoyulmuşdur. Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edərək, həmin ərazilərdə üçrəngli bayrağını dalğalandırdı. 30 illik həsrətə, ağrı və acıya son qoyuldu. Bu gün artıq Azərbaycan öz ərazilərində abadlıq-quruculuq işlərinə başlayıb.




***Nəzakət ƏLƏDDİNQIZI***

# “Ermənistan özünün müsbət obrazını yaratmağa çalışır”

**“Biz artıq neçənci dəfədir ki, Paşinyanın sülh prosesinə hazır olması ilə bağlı açıqlamalarını eşidirik”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.**



Politoloq şərh etdi

Onun sözlərinə görə, lakin təəssüf ki, onun açıqlamaları atdığı addımlarla üst-üstə düşmür və bir-biri ilə ziddiyət təşkil edir: ”Belə ki, sülh prosesinə hazır olduğunu deyən Paşinyan yaxşı bilir ki, sülhə aparan yol ilk növbədə üçtərəfli bəyanatda nəzərdə tutulmuş öhdəliklərin icrasından keçir. Başqa sözlə desək, erməni silahlı birləşmələrinin qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasından, kommunikasiya xətlərinin və nəqliyyat dəhlizlərinin açılmasından, sərhədlərin delimitasiya və demorkasiyasından və ən nəhayət Azərbaycanın ərazi bütövlüyünü tanımasından keçir. Sadalanan öhdəliklərin icrası ilə bağlı hər hansı bir əməli addım atmayan və bu istiqamətdə yaradılmış ayrı-ayrı komissiyaların fəaliyyətini tormozlayan tərəf məhz Ermənistandır və odur ki, indi Paşinyanın yenidən sülhə hazır olması ilə bağlı verdiyi bəyanat sadəcə beynəlxalq ictimai rəydə Ermənistanın müsbət obrazını yaratmağa hesablanıb. Çünki xüsusilə keçirilmiş son dörd Brüssel görüşündən sonra əldə edilmiş razılışmaların icrası ilə bağlı öhdəlikləri yerinə yetirməyən Ermənistana qərb dairələrindən də müəyyən təzyiqlərin olduğu məlumdur. Digər bir tərəfdən isə danışıqlar prossesinin Avropa İttifaqı vasitəçiliyi ilə keçirilməsinə qısqanc yanaşan Rusiya faktoru da var. Rusiya 44 günlük Vətən savaşından sonra faktiki olaraq təkbaşına həyata keçirdiyi vasitəçilik missiyasını Avropa institutları ilə bölüşmək istəmir”.

Politoloq sözlərinə əlavə edərək bildirdi ki, çünki digər vasitəçilərin də mövcudluğu Rusiyanı tərəflərə təzyiq imkanlarını itirmək təhlükəsi ilə üz-üzə qoyur ki, Rusiya da bununla heç bir halda razılaşmaq istəmir: ” Yəni başqa sözlə desək Brüsseldə keçirilən hər danışıqlardan sonra baş verən təxribatlar bir tərəfdən Ermənistana lazımdırsa, digər bir tərəfdən də Rusiyaya lazımdır. Təxribatların cavabsız qalmayacağını kifayət qədər yaxşı dərk edən Paşinyan hakimiyyəti vəziyyətin gərginləşməsindən danışıqlar prosesini uzatmaq üçün istifadə edir. Rusiya isə hər təxribatlar nəticəsində gərginləşən münasibətlərlə Brüssel danışıqlarının əhəmiyyətsiz olması ilə bağlı rəy formlaşdırır. Noyabrda keçirilməsi nəzərdə tutulan görüşə gəldikdə isə, məlumdur ki, son Brüssel görüşündə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə bir ay ərzində sülh müqavilsinin hazırlanması ilə bağlı konkret tapşırıqlar verilib və noyabrda keçiriləcək görüşün də məhz hazırlanacaq sənədin müzakirəsinə həsr olunacağı qənaətindəyəm. Amma yenə deyirəm nə qədər ki, Avropa İttifaqı və ümumilikdə Qərb dövlətləri Ermənistana açıq şəkildə təzyiq göstərməyəcəklərsə bu prosses uzanacaq. Yəni daha açıq desək Ermənistana Rusiyanın boyunduruğundan çıxmaq üçün konkret təzyiq göstərilməlidir”.

*Qönçə Quliyeva*



# Solovyovun sifətini kim cırmaqlayıb?

...Məşqçi Mixail Ryabko, teleaparıcı Vladimir Solovyovun üzündəki qançırların həyat yoldaşı ilə sparrinq nəticəsində yarana biləcəyini ehtimal edib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə Baza Telegram kanalı yazır.

Beləliklə, qeyd olunur ki, Vladimir Solovyov ötən gün efirə üzündə aydın görünən sıyrıq və qançırlarla çıxıb. Təbii ki, efirdən qabaq müxtəlif variantlarla sifətindəki sıyrıq və qançırları gizlətməyə çalışan aparıcı buna elə də nail ola bilməyib.

Bu da, mətbuat və kanallarda yayım dalğasına səbəb olub. ”Baza”nın jurnalistləri teleaparıcının müxtəlif döyüş növlərini, o cümlədən karate və ”sistem” adlanan idman növlərini sevdiyini bildiriblər.



Onlar məşq zamanı hər hansı insidentin olub-olmadığını Solovyova idman-döyüş növlərini öyrədən məşqçidən soruşmaq qərarına gəliblər.

Solovyovun məşqçisi Ryabko ötən gün onun həqiqətən sparrinq etdiyini bildirib. Döyüşdən sonra onun, sifətində həqiqətən də buraxılmış zərbələrin əlamətləri ola biləcəyini də deyib.

Amma, deyəsən dediklərinə sonradan şübhə edən məşqçi, Volodiyanın evdə arvadı ilə mübahisə zamanı da oxşar nəticələr ola bilərcəyini istisna etməyb. Maraqlıdır, görən, Solovyovun sifətini kim cırmaqlayıb? Amma deyim ki, kim edibsə...elə haqq eləyib.

*Əli Babayev*



Mətanət MƏMMƏDOVA

# Dünya jurnalistləri, Qarabağa gəlin!

**Bu gün Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür. Məhz bu gün bütün dünya jurnalistlərinin həmrəyliyi kimi tarixə düşsə də, təqvimin 8 sentyabr gününü onlar üçün xüsusi etsə də, hələ ki, həmkarlarımızın möhtəşəm birliyinin və həmrəyliyinin şahidi ola bilməmişik.**

Lakin bu birliyin və həmrəyliyin labüdlüyünü zaman özü yetişdirib. Biz bir olmasaq, bir-birimizin sözünü dinləməsək, hansı həmrəylikdən söhbət gedə bilər? Biz harada yaşamağımızdan asılı olmayaraq istənilən bir ölkədə baş verən hadisələrə obyektiv yanaşıb onu dünya ictimaiyyətinə çatdırmasaq hansı həmrəylikdən danışa bilirik?

İllərlə Azərbaycan Qarabağ problemi ilə yaşamış, artıq iki ilə yaxındır ki, bu problemi həll etmiş, minlərlə övladını müharibənin amansızlığına qurban verərək torpaqlarını erməni adlı yağıdan geri almışdır. 30 il davam edən bu proses barədə dünya jurnalistlərindən yazanlar da olmuşdur. Lakin çox az... Qarabağ elə bir mövzu idi ki, nə qədər yazılsaydı, bu torpaqlarda erməni vəhşiliyi nə qədər çəkilib dünyaya nümayiş olunsaydı, yenə az olardı.

Bu gün 30 il erməni qəsbkarlığı altında inləyən torpaqlarımız artıq geri alınıb. İndi bütün dünya jurnalistləri Qarabağa gəlsələr, burada birlik, həmrəylik nümayiş etdirsələr, bu tarixə düşən bir hadisə olar.

Gəlin, ey dünyanın jurnalistləri, müxbirləri, reportyorları, Qarabağa gəlin! Bu gün - Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günündə hər birinizi Qarabağa gəlməyə səsləyirəm. Gəlin, buradan hazırladığınız reportajlarla, buradan yazdığınız yazılarla, çəkdiyiniz şəkillərlə dünyanın ən məşhur jurnalistləri olmaq istəyirsinizsə, Qarabağa gəlin.

Gəlin və görün ki, Azərbaycan xalqının taleyinə hansı vəhşi ilə qonşu olmaq yazılıb. Gəlin, görün ki, erməni adlı vəhşi qəbilənin nümayəndələri 30 ildə qonşunun torpaqlarında nələr törədiblər. İnsanların evlərini, həyətlərini, əzizləri uyuyan qəbiristanlıqları, sosial obyektləri nə vəziyyətə salıblar. Gəlin, öz gözlərinizlə görün, ermənilərə sual verin ki, əgər bu torpaqlar iddia etdiyiniz kimi sizin idisə, nə üçün burada daşı daş üstündə qoymamısınız? Torpağın üstü kimi, altını da nə üçün talayıb aparmısınız?

Nə idi milyonlarla kəsilən ağacın, məhv edilən təbiətin, bu vəhşiliyin qurbanı olan heyvanların günahı? Nə idi günahı minlərlə insanın? Evindən didərgin salınan, 30 il dədə-baba yurduna həsrət qalan insanların... Nə üçün talanmalı idi bu yurdlar? Daşınıb xarici bazarlarda satılmalı idimi Azərbaycana məxsus sərvətlər? Gəlin, gəlin, görün heç həyatınızda bu qədər vəhşiliklə qarşılaşmısınızmı?

Gəlin, Qarabağın Zəfərini, hər yerdə dalğalanan Azərbaycan bayrağını görün. Qarabağın ermənilərin özlərinin də çox böyük yanğı ilə bəhs etdikləri inkişafını görün. İki ilə yaxın dövrdə burada görülən işlərlə, soydaşlarımızın yurdlarına qayıtması, təhlükəsizliyi üçün həyata keçirilən tədbirlərlə tanış olun.

Gəlin, əsl vaxtdır, məqamdır. Gəlin, ermənilərin torpaqlarımızı tərk edərkən yandırdıqları yerləri, ağacları, qəbiristanlıqları görün. Vəhşiliyin bu dərəcəsinə yalnız gözlərinizlə görməklə inana bilərsiniz. Gəlin, çəkin, bütün dünyaya bəyan edin erməni vəhşiliyini.

İnanın ki, gəlsəniz, həftələrlə Qarabağı gəzməli olacaqsınız. Çünki burada yazmaq üçün bir-birindən maraqlı o qədər mövzu var ki... Burada çəkmək, videolentin hafizəsinə, fotolara köçürmək üçün o qədər maraqlı görüntülər var ki...

Kim dünyaca məşhur, gündəmdə olan jurnalist olmaq istəyirsə, Azərbaycana-Qarabağa gəlsin. Qarabağdan yazılanlarla, çəkilənlərlə bütün dünya sizi tanıyar, müraciət etdiyiniz bu mövzu dünyada çox nadir halda olduğu üçün bütün diqqətləri üzərinizə çəkə bilərsiniz.

Gəlin, gəlin ki, jurnalist həmrəyliyini dünyaya bəyan edək. Bir-birimizin xalqına, millətinə, ölkəsinə hörmətimizi bəyan edək. Biz bir-birimizin yanında olmaqla, haqqı, ədaləti görüb qələmə almaqla həmrəy ola bilərik. Əks təqdirdə hansı həmrəylikdən söhbət gedə bilər?.

# Yeni tikiləcək məktəblər müasirliyi və arxitekturası ilə seçiləcək

## Dövlət başçısının Sərəncamı ilə Kəlbəcər şəhərində tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb





“Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycan tarixinə yazılan Vətən müharibəsində rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Qələbə müasir Azərbaycan dövlətinin hərbi qüdrətini və Azərbaycan xalqının qələbə əzmini, birlik və həmrəyliyini bütün dünyaya göstərdi. Ölkəmizin iqtisadi qüdrətinin artması nəticəsində Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlərin reallaşdırılması bizə Qələbəmizi qazandırdı.

Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyan Azərbaycanda Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, hərbçilərimizin psixoloji hazırlığı, vətənpərvərlik hissi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, döyüş qabiliyyətli silahlı qüvvələri olmayan ölkə necə texniki vasitələrə malik olsa belə, onun döyüşdə, xüsusən müharibədə, özü də belə əlverişsiz coğrafi şəraitdə qalib gəlməsi mümkün olmazdı. Bu Qələbə yaşadığımız bölgədə sülh və təhlükəsizliyə töhfəsini verdi. Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışa başlayıb. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.



Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportunun açılışı Azərbaycanın bir daha iqtisadi gücünü göstərdi. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən silahlı təcavüzü zamanı mindən çox təhsil müəssisəsi və uşaq bağçası tamamilə məhv edilib ki, bu gün onların bərpası və yenidən tikintisi önəmli məsələlərdəndir. Əlbəttə ki, gələcəyimiz olan uşaqların normal şəraitdə təhsil almaları, sağlam mühitdə böyümələri vacibdir. Bu gün işğaldan azad olunan ərazilərimizdə məktəb tikintisi vacib məsələlərdən biri olaraq diqqətdədir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev ”Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər” haqqında Sərəncamına əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb.

Dövlət başçısının digər Sərəncamı ilə Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb. Artıq Şuşa və Ağdam şəhərlərində 960 şagird yerlik məktəblərin tikintisi davam etdirilir. İşğaldan azad olunan ərazilərdə tikiləcək məktəblər müasirliyi və arxitekturası ilə seçiləcəkdir.

***Zümrüd BAYRAMOVA***



## “Sizi burada heç kim gözləmir”...

### Estoniya sentyabrın 19-dan Rusiyadan gələn bütün turistlərə girişi qadağan edəcək

Sentyabrın 19-dan Estoniya istənilən Şengen vizası, o cümlədən digər Avropa İttifaqı ölkələri tərəfindən verilmiş Rusiya vətəndaşlarının girişini bağlayır. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə Estoniyanın xarici işlər naziri Urmas Reinsalu bildirib.

”Xarici sərhədləri keçmək qadağası vizanın hansı dövlət tərəfindən verilməsindən asılı olmayaraq Rusiya vətəndaşları üçün qüvvədə olacaq”. Bunu estoniyalı nazir bildirib.

Nazirin dediyinə görə, qadağa hələlik ancaq turistlərə şamil edilir. Yəni onun dediyindən belə başa düşülür ki, Estoniyada yaşayan rusların qohum-qardaşları hələ ki,.. ziyarət və humanitar səfərlərə gələ bilərlər.

... Ümumilikdə isə, Rusiya vətəndaşlarına edilən çağırış belədir: ”Estoniyaya Şengen vizası ilə gəlməyin, burada xoş qarşılanmayacaqsınız. Çünki burada heç kim sizi gözləmir!” Bunu da baş nazir Reinsalu əlavə edib.

Maraqlıdır ki, eston nazir digər Baltikyanı ölkələrin də bundan nümunə götürəcəyinə əmin olduğunu bildirib. Bu arada verilən xəbərə görə, Latviya Xarici İşlər Nazirliyinin Rusiya vətəndaşları üçün ölkəyə giriş qadağası...on gün ərzində qüvvəyə minəcək

***Ağasəf Babayev***

ARAŞDIRMA

# Qlobal mafiyanın ölüm biznesi: Orqan ticarətinin dəhşətləri

**Orqanların çıxarılması üçün insan qətl edilməlidir, çünki cəsəddən götürülən orqanlar heç nəyə yaramır**

Xəbər verdiyimiz kimi, baş nazir Əli Əsədovun imzaladığı qərarla transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası təsdiqlənib. Qərar transplantasiya məqsədilə donor orqanların idxalına və ixracına icazə alınması üçün müraciət edilməsi, müraciətlərə baxılma qaydasını, idxala və ixraca dövlət nəzarətinin həyata keçirilməsi məsələlərini tənzimləyir, donor orqanların idxalına və ixracına xüsusi icazə verilməsi barədə qərar formalarını müəyyən edir.

Azərbaycanda bu işlər 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minmiş ”İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Qanuna əsasən həyata keçirilir.

### İlk orqanköçürmə əməliyyatı SSRİ-də olub

Orqan köçürmə halına qədim dövrlərdə də rast gəlinib. Müasir dövrdə isə, xəstənin həyatını başqa cür xilas etmək mümkün olmadıqda, ona digər bir insandan orqanın köçürülməsi təcrübəsi ilk dəfə 1933-cü ildə SSRİ-də doktor Voronov tərəfindən reallaşdırılıb. İlk köçürülən orqan böyrək olub.

Azərbaycanda ilk orqan transplantasiyası əməliyyatı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. O Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə olaraq 1971-ci il martın 4-də pasiyentinə böyrək köçürüb. Elə bu nailiyyətinə görə də 1974-cü ildə SSRİ dövlət mükafatına layiq görülən akademik 1983-cü ilə kimi Azərbaycanda 30-a yaxın böyrəkköçürmə əməliyyatı həyata keçirib.

Hər il dünyada təxminən 125 min orqan transplantasiyası həyata keçirilir. Bu rəsmi rəqəmlərdir. Qeyri-rəsmi rəqəmlər isə dəfələrlə böyükdür və bu ticarətin qlobal dövriyyəsi trilyonlarla ölçülür. Söhbət ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsi ilə bağlıdır. Bir müddətdir ki, Azərbaycanda da orqan transplantasiyası məsələsi aktualdır. Lakin bu mövzuda fikirlər fərqlidir. İlk baxışda humanist bir addım kimi görünsə də, əslində, heç də elə deyil...

### Məsələnin alt qatlarında daha dəhşətli faciələr yatır

Düzdür, kimisə xilas etmək üçün kiminsə orqanını bağışlaması humanist hərəkətdir. Lakin burada çox mürəkkəb məsələlər var. Əvvəla, tədqiqatçıların rəyinə görə, tam ölüm zamanı heç bir orqan götürülüb köçürülə bilmir, çünki o orqan yararsız olur- göz qişasından başqa. Həkimlər beyin ölümü diaqnozu qoyduqları xəstənin hələ tam ölməmişkən orqanlarını götürə bilərlər. Halbuki, adam hələ həyatdadır. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və orqan ticarətinin dövriyyəsi trilyonlarla ölçülür.





Çox zaman bunu donora ”beyin ölümü” diaqnozu qoymaqla edirlər. Beyin ölümü və digər bu tip tibbi diaqnozları təsdiq edən elmi mərkəzlər də həmin qlobal mafiyanın nəzarətindədir. Üstəlik, beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə ”beyin ölümü” faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

Ölənlərin 14 faizinə beyin ölümü dianoqzunun qoyulması son dərəcə ciddi şübhələr yaradır. Beyin öülümü dianoqnu qoyulanların azı 70-80 faizinin orqanları köçürülmə üçün yararlı olur.

Hətta beyin ölümü belə insanın tam ölümü demək deyil. Bu halda sağ insanın orqanların götürülməsi xəstənin icazəsi olmadan, yəni, onu öldürərək alınma halıdır. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var dünyada. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, hətta birini xilas etmək naminə belə digərini öldürmək cinayət faktıdır.

Şəxs xəstəliklə bağlı şüurunu itirmiş haldadırsa, hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanmaq fikri haqda şübhələr olmadıqda. Öldükdən sonra isə, dediyim kimi, heç bir orqanı istifadə eləmək olmur, yalnız göz qişasından başqa.

### Orqan ticarəti müharibələrə və terrora rəvac verir

Bəzi ölkələrdə bu qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta, bəzi müharibələr məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədilir. Misal üçün, Suriyada, Liviyada, İraqda, Əfqanıstanda, Ukraynada, Misirdə yüz minlərlə uşağın və girov götürülmüş digər sağlam insanların orqanları zorla alınır və varlı ölkələrə satılır.

Dünyanın ən dəhşətli terror təşkilatı İŞİD də bu işlə fəal məşğul olur və əsir aldığı şəxslərin orqanlarını Qərb ölkələrindəki varlılara satır. Bəzən isə, müharibə bölgəsindəki yoxsul insanlar özləri könüllü olaraq orqanlarını İŞİD-ə satırlar. Bu əməliyyatlardan ildə on milyonlarla pul qazanır.

Ümumən, Qərbin Suriyada törətdiyi terror və müharibədən sonra bu ölkədə orqanları sağ ikən çıxarılıb öldürülən insanların sayı yüz minlərlə ölçülür. Statistikaya görə, təkcə orqanları çıxarıldıqdan sonra cəsədləri dəfn olunmaq üçün yenidən Suriyaya göndərilənlərin sayı 60 mindən çoxdur. Eynilə, Ukraynada, Əfqanıstanda, İraqda və Liviyada da vəziyyət belədir.

Yunanıstanın keçmiş xarici işlər naziri Nikos Kotzias minlərlə qaçqın uşağa viza verildikdən sonra onların Avropada seks köləsi olduğunu və orqan mafiyasına təslim edildiyini bildirməklə, bütün dünyanı dəhşətə gətirən mənzərəni rəsmən etiraf edib. Kotzias bu məsələ ilə bağlı 93 hadisənin qeydə alındığını da vurğulayıb.

”Kimsəsiz uşaqlara viza verilməsinin nə demək olduğunu bilirsinizmi? Bu orqan ticarəti deməkdir! Öləndən sonra rahat yatmağıma səbəb olacaq yeganə şey isə bəzi canları xilas edə bilməyimdir”. söyləyən sabiq nazir bəyanatında açıqladığı rəqəmin sadəcə aysberqin görünən tərəfi olduğunu da vurğulayıb. Çox təəssüf ki, bu qorxunc hesabata rəğmən, Avropada heç bir cinayət işi açılmayıb, uşaqların aqibəti qeyri-müəyyən olaraq qalmaqdadır.

### Kasıb şərqlilərdən varlı qərblilərə gedən orqanlar

Qəsdən müharibə törədilən Yaxın Şərq ölkələrindən orqanların çıxarılması məqsədilə canlı insan daşındığı ölkələrin içində ABŞ, İsrail və Qərbi Avropa ölkələri ilk yerlərdədir.

Bir az da geniş kontekstdə baxsaq, terror, müharibə törədilmiş kasıb Şərq ölkələrində sağlam insanların orqanları zorakı və kütləvi şəkildə götürülüb varlı Qərb ölkələrində istifadə olunur. Kasıbların qurban verilməsi səbəbinə varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial-psixoloji, mənəvi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

İtkin düşənlərin çoxunun orqan mafiyası tərəfindən qaçırıldığı haqda ciddi şübhələr var. Amerikada son 20 ildə çoxu uşaq olmaqla 400 min nəfərin itkin düşərək yoxa çıxması çox ciddi reaksiya doğurub. Son 10 ildə Azərbaycanda itkin düşənlərin sayı 10 min nəfərdən çox olub. Bu şəxslərin necə birdəfəlik yoxa çıxması çox ciddi şübhələr yaradır. Hərdənbir DTX və DİN-in Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş idarəsi tərəfindən orqan ticarəti ilə məşğul olan mütəşəkkil cinayətkar dəstələr aşkar olunur və onlar haqda istintaq aparılır.

### İnsan orqanları bazar malı kimi qiymət qoyulub satılır

Bu biznesin qlobal dövriyyəsi trilyonlarla ölçülür, qurbanları isə milyonlarla. Bəs niyə müasir insanların öz orqanları sıradan çıxır və donor orqana möhtac qalırlar? Həkimlərin fikrincə, bu artıq həyat tərzi ilə bağlı məsələdir.

Qeyri-təbii qidalanma, qeyri-sağlam həyat tərzi, zərərli vərdişlər insanların orqanlarını sıradan çıxarır. Bu səbəblərin aradan qaldırılması ilə məşğul olmaq lazımdır. Biz bunu araşdırmalıyıq ki, niyə orqan çatışmazlığı yaranır və bunun qarşısını almaq üçün çalışmalıyıq. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır.

Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, kefini sürür, nəticədə orqanı sıradan çıxır, kimsə də insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır?

Yalnız bir halda bunu etmək olar. Bir insan yalnız özü şəxsən və çoxsaylı şahidlərin iştirakı ilə öz orqanını kiməsə verə bilər, misal üçün, yaxın adamını, ya da hansısa bir şəxsi xilas etmək üçün heç bir pul tələb etmədən. Orqan bir şərtlə verilə bilər ki, o, bərpa olunan olsun, şəxsin ölümünə, əlilliyinə səbəb olmasın. Əks halda, bu qərar orqan ticarətinin çiçəklənməsinə stimul yaradacaq ki, bu da həyatda ən ağır cinayətlərdən biridir.

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
9 sentyabr
2022-ci il



# Xavi: “Messi tarixin ən yaxşısıdır”

“Barselona”nın baş məşqçisi Xavi Ernandes klubun sabiq futbolçusu Lionel Messi haqqında danışıb. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, o, 35 yaşlı hücumçunu tərifləyib:

”Messinin gedişi ilə bağlı kədər heç vaxt bitməyəcək. O, tarixin ən yaxşısıdır. Onun etdiyi hər şey qeyri-adi idi. Təəssüf ki, bu bitdi və indi başqa oyunçularımız var. Hələ nəyisə proqnozlaşdırmaq tezdir, amma biz ümidliyik”,

Qeyd edək ki, Messi 2021-ci ilin yayında ”Barselona”dan ayrıldıqdan sonra PSJ-yə keçib.



# Azyaşlı qızların təcavüzə məruz qalmasının günahkarı KİMDİR?

**“Azyaşlı uşaqlara təcavüz elmi dildə ”Pedofiliya” adlanır”. Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Cəmilə Abbasova bildirib.**

Onun sözlərinə görə, əsas günahkar isə valideynlər və cəmiyyətdir: ”Xüsusilə də cəmiyyət qınağı. Qız uşaqları ilə yanaşı oğlan uşaqları da təcavüzə uğrayır. Hətta 1/2 yaşında belə təcavüzə uğrayan körpələr olub və bəlkə də hələ də bu hal davam edir. Çünki valideynlər belə məsələləri ört-basdır etməyə çalışırlar. ”Camaat nə deyər?”, ”Böyüyəndə alan olmayacaq”, ”Ayıbdı”, Qohum əqraba içinə necə çıxarıq” ,”Məhkəmələrdə sürünməyə vaxtım yoxdur”, ”Rüsvay ola bilmərəm” və s. kimi ifadələr çox işlənir. Hətta uşağı belə qorxudurlar, sanki günahkar onlarmış kimi ”Kimsə bilsə səni öldürərəm”, ”Əmi sadəcə sənlə oynayırdı” və s. Belə hallarla qarşılaşmamaq üçün sakit durmaq yox, əksinə arxasıyca gedib haqqı-ədaləti, qanunu tapmaq lazımdır. Təcavüzçülərlə bağlı heç bir tədbir görülmədikdə daha da bu hallar artır və artacaq da.

Xüsusilə valideynlər çalışmalıdır ki özgüvənli, özünəinamlı uşaqlar yetişdirsinlər. Birdə cinsiyyətin önəmi yoxdur. Hə bir vəziyyətdə onlara dəstək olub, kömək etsinlər. Hər zaman yanlarında olsunlar. Valideyn güvəni, sevgini tam verdikdə heç bir zərər gəlməz. Bu hallarla qarşılaşan insanlar isə yaşından asılı olmayaraq təcavüzə uğrayıbsa və uğramağa davam edirsə sakit durmasın, özünü müdafiə etsin sona qədər və psixoloji dəstək alaraq həyatına davam etsin”.

***Abutel İlhamqızı***

# Levandovski vurduğu qolları həyat yoldaşına həsr etdi



“Barselona”nın futbolçusu Robert Levandovski futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin 1-ci turunda ”Viktoriya” (Plzen, Çexiya) ilə görüşdəki het-trikini həyat yoldaşına həsr edib. UEFA-nın rəsmi saytında yer alan məlumatda deyilir ki, bu barədə 34 yaşlı hücumçu özü açıqlama verib. Robert deyib: ”Bu gün həyat yoldaşımın ad günüdür. Bütün qollar onun üçün idi. Həyat yoldaşımın ad günündə stadionda olması mənim üçün çox əlamətdar və vacibdir”. Qeyd edək ki, ”Barselona” ”Viktoriya”ya 5:1 hesabı ilə qalib gəlib.

# Bakıda avtomobil qadını vuraraq öldürüb



Bakıda avtomobil qadını vuraraq öldürüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, hadisə sentyabrın 7-si saat 20 radələrində paytaxtın Qaradağ rayonu, Ələt qəsəbəsi ərazisində qeydə alınıb.

Belə ki, Cəlilabad rayon sakini V.Babayev idarə etdiyi ”Mercedes” markalı avtomobillə yolu keçən Bakı şəhər sakini Əsmər Səfərovanı vurub və nəticədə piyada hadisə yerində ölüb. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# VACİB MƏQAM:
## Ana olmaq üçün ideal yaş neçədir?



**“Ana olmaq üçün ideal yaş 22-23 yaş sayılır”. Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı bildirib.**

Onun sözlərinə görə, ana olmağın əslində standart yaşı yoxdur: ”Elə qadın var ki, 25 yaşı var və ana olmağa psixoliji çox cəhətdən hazırdır, çox olğundur, ana olmağın məsuliyyətini dərk edir. Amma elə qadın da var ki, 30 yaşı var və valideynlik məsuliyyətini dərk edə bilmir, ana olamağa hazır olmadığını bildirir. Lakin qeyd edim ki, mən ilk 25 yaşımda ana oldum, 2-ci dəfə isə 35 yaşımda ana oldum. Amma onu qeyd edərdim ki, ana olmaq duyğusunu 35 yaşımda daha yaxşı anlamışam. Uzun bir müddətdən sonra yenidən ana olduğu zaman o hissləri daha güclü şəkildə yaşayır. Həmçinin bir çox qadın da bu cür fikirləşir.

Valideylər çalışmalıdır ki, cəmiyyətə sağlam bir şəxsiyyət vermək üçün olğun yaşda övlad sabihi olmalıdırlar”.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**